RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 254 (8570) CÜMƏ, 4 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında

### Azərbaycan Respublikasi Prezidentinin SƏRƏNCAMI

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan - Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

## “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli 2312 nömrəli Sərəncamının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli 2312 nömrəli Sərəncamı ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatı

Ermənistanın ardıcıl təxribatları və hərbi təcavüzünə cavab olaraq 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı Ermənistanın otuz ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoymaq və torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda Vətən müharibəsinə qalxmışdır. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan xalqı tarixi qələbə qazanmış, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Bununla yanaşı, noyabrın 10-u Türkiyə Cümhuriyyətinin qurucusu, adı türk dünyasının tarixinə qızıl hərflərlə həkk olunmuş böyük şəxsiyyət Mustafa Kamal Atatürkün anım günüdür. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: “Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün əziz və hörmətlidir”. Azərbaycanı ürəkdən sevən, “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” deyən Mustafa Kamal Atatürk hər bir azərbaycanlının qəlbində özünə yer etmişdir, onun xatirəsi ölkəmizdə də böyük ehtiramla yad olunur.

Noyabrın 10-nun Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etmişdir.

Hər bir azərbaycanlı üçün əziz olan Qarabağın incisi Şuşa şəhərinin noyabrın 8-də iyirmi səkkiz illik əsarətdən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, düşmənin siyasi-hərbi rəhbərliyinin məğlubiyyəti etiraf etməsinə və hərbi əməliyyatları dayandırmasına səbəb olmuşdur.

Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın döyüş əzminin və qüdrətinin təntənəsinə çevrilən, dövlətimizin gələcək inkişafı və nüfuzu baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd ediləcəkdir.



# Azərbaycan pandemiyanın fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə verir

**Dekabrın 3-də Nyu Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi - COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyev sessiyada videoformatda çıxış edib.**

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Sədr.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Qoşulmama Hərəkatının üzvü olan 120 dövlət adından çıxış etməkdən şərəf duyuram.

Aktual qlobal məsələlərə və çağırışlara cavab vermək üçün çoxtərəfli mühüm forum olan BMT-nin 75 illiyini qeyd etdiyimiz bir vaxtda narahatlıq doğuran çoxlu sayda yeni sahələrin meydana çıxmasını təəssüf hissi ilə bildiririk. Həmin narahatlıqlar BMT Nizamnaməsinin və “Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi”nin təməlində duran multilateralizmə və beynəlxalq əməkdaşlıq dəyərlərinə kollektiv sadiqliyimizi yenidən nümayiş etdirməyi tələb edir.

Bunun bariz nümunəsi Qoşulmama Hərəkatı tərəfindən irəli sürülmüş BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünə BMT-nin üzv dövlətlərinin böyük dəstəyidir. Digər məsələlərlə yanaşı, bu, Qoşulmama Hərəkatının üzv dövlətlərinin möhtəşəm uğurudur. Çünki biz bu il həm də beynəlxalq əməkdaşlığın təşviqini özündə ehtiva edən Bandunq Bəyannaməsinin qəbul olunmasının 65 illiyini qeyd edirik. Bununla əlaqədar Xüsusi Sessiyanın keçirilməsinə verdikləri dəstəyə görə mən Hərəkat adından BMT-nin üzv dövlətlərinə və Baş Assambleyanın Sədrinə səmimi təşəkkürümüzü bildirmək istərdim.

2020-ci il ərzində dünya ictimaiyyəti müasir tariximizin ən ciddi səhiyyə böhranı ilə üzləşib. Hazırda dünyada 60 milyondan artıq yoluxma halı qeydə alınıb və 1 milyondan çox insan həyatını itirib. Səhiyyə, ictimai, iqtisadi və maliyyə sahələrində çoxşaxəli fəsadlara yol açan bu böhran cəmiyyətlərə, iqtisadiyyata, qlobal ticarət və səyahətə böyük zərər yetirmiş və insanların yaşayışına sarsıdıcı təsir göstərmişdir.

Pandemiyanın misli görünməmiş universal fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə vermək və Qoşulmama Hərəkatına üzv dövlətlərə operativ, adekvat və əhatəli yardımın göstərilməsi məqsədilə Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı Təmas Qrupunun onlayn Zirvə görüşünü təşkil etmişdir.

*Ardı 2-ci səh.*

## Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə 2020-ci il dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükut elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

## Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılsın.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yeri və layihələndirilməsi ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

3.1. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*

## Müdafiə Nazirliyinin məlumatı

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Vətən müharibəsində həlak olan və yaralanan hərbi qulluqçularla bağlı məlumat yayıb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd edilib ki, Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına və şücaətlə döyüşərək Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirib, illər ərzində Ermənistanın işğal altındakı torpaqlarımızda qurduğu mürəkkəb konstruksiyalı mühəndis-istehkam və bunker sistemlərini darmadağın edib, bir neçə eşelondan ibarət və sıx şəkildə minalanmış müdafiə xətlərini yararaq torpaqlarımızı işğaldan azad edib.

Rəşadətli və qorxmaz əsgər və zabitlərimiz əksər strateji yüksəkliklərin, əlverişli döyüş mövqelərinin Ermənistan silahlı qüvvələrinin əlində olması, Ermənistanın çoxsaylı artilleriya, yaylım atəşli reaktiv sistemləri və minaatan qurğularından ibarət sıx atəş zərbələri altında və çətin coğrafi relyef və iqlim şəraitində döyüş apararaq Ermənistanı məğlub etməyə müvəffəq olub.

Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biridir.

Otuz ilə yaxın həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad edilib. Döyüş əməliyyatı planlarının yüksək peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti, digər taktiki və strateji üstünlükləri şəxsi heyətin sıralarında itkilərimizi əsaslı dərəcədə azaldıb. Amma müharibə itkisiz olmur.

Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olub. Onların sırasında 103 nəfər hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100 nəfərdən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 nəfər hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.

“Həlak olan hərbi qulluqçuların adları, təvəllüdü, rütbəsi və keçdiyi döyüş yolu barədə təfərrüatlı məlumatlar əlavə olaraq ölkə ictimaiyyətinə təqdim olunacaqdır. Aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət komissiya bu istiqamətdə fəaliyyət göstərir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin ruhu qarşısında baş əyirik!”, - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

# Azərbaycan pandemiyanın fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə verir

Əvvəli 1-ci səh.

Həmin toplantının praktiki nəticəsi olaraq Hərəkata üzv dövlətlər COVID-19 ilə mübarizə və koronavirusla bağlı Qoşulmama Hərəkatının üzv dövlətlərinin əsas humanitar, tibbi ehtiyac və tələblərinə dair məlumat bazasının yaradılması üçün işçi qrupun təsis edilməsi qərarına gəlmişlər.

Məmnuniyyətlə qeyd etmək istərdik ki, pandemiya ilə bağlı tədbirlərin görülməsi zamanı Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının müəyyənləşdirilməsi üçün Hərəkatın məlumat bazasını istinad mənbələrindən biri kimi istifadə edir.

Qoşulmama Hərəkatı BMT sisteminin COVID-19 ilə mübarizədə fəaliyyətini yüksək qiymətləndirir. Biz pandemiyaya qarşı qlobal mübarizədə BMT-nin fəaliyyətinə rəhbərlik edən, onun əməliyyatlarının davamlılığını təmin edən Baş katibin güclü liderliyini təqdir edirik. Hərəkat COVID-19 pandemiyası ilə bağlı artmaqda olan çağırışlarla mübarizədə beynəlxalq ictimaiyyət tərəfindən təsirli tədbirlərin görülməsi üçün təlimatların verilməsi, təlimlərin və avadanlıq, konkret xilasetmə xidmətlərin təşkili sahəsində Ümumdünya Səhiyyə Təşkilatının və onun rəhbərliyinin mühüm rolunu tam şəkildə dəstəkləyir.

Pandemiya istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəiflikləri və bərabərsizliyi aşkara çıxararaq onları daha da kəskinləşdirmiş, habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırmışdır. Pandemiya ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurmuşdur. Qoşulmama Hərəkatı böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağından və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağından dərin narahatlıq keçirir.

Həmçinin narahatlıq hissi ilə onu da qeyd etmək istərdik ki, pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında da müzakirə edilmiş bu problemlər qlobal maliyyə və iqtisadi böhranın təsirləri, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində resurs qıtlığı və iqtisadi-sosial gerilik, qeyri-bərabər ticarət şərtləri və inkişaf etmiş ölkələrin kifayət qədər əməkdaşlıq etməməsi, onların bəziləri tərəfindən birtərəfli və məcburedici tədbirlərin tətbiqi, habelə gücdən istifadə və ya gücdən istifadə ilə hədələmə və digərlərindən ibarətdir.

Qoşulmama Hərəkatı bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğulayır.

COVID-19 əleyhinə bir çox vaksinlərin tədqiqatının davam etdiyi bir vaxtda biz kliniki sınaqların uğurlu nəticələrini gözləyir və ümid edirik ki, təhlükəsiz və təsirli vaksin tezliklə hazır olacaq və onun hamı üçün münasib qiymətə paylanılması təmin ediləcəkdir. Biz bu prosesdə ÜST-ün əlaqələndirmə səylərini yüksək qiymətləndirir və vaksin hazır olduğu zaman təşkilatın insanların belə bir vaksinə bərabər çıxışının təmin edilməsində rolunun vacibliyini vurğulayırıq.

Cənab Sədr, beynəlxalq ictimaiyyət yalnız birlik, çoxtərəfli əməkdaşlıq, həmrəylik və insan hüquqlarına hörmət əsasında COVID-19-un fəsadlarının aradan qaldırılması və indi yayılmaqda davam edən pandemiyadan xilas olmaq üçün strategiyalar hazırlaya bilər.

Bu xüsusi sessiya beynəlxalq əməkdaşlıq və multilateralizmə sadiqliyin bir daha təsdiq edilməsi və gücləndirilməsi, habelə ən yaxşı təcrübələrin vurğulanması kimi geniş məqsədlərə xidmət edəcək. Xüsusi sessiyada həm də pandemiyaya qarşı mübarizədə üzv dövlətlərin üzləşdiyi çağırışlar nəzərdən keçiriləcək və üzv dövlətlər, müşahidəçi dövlətlər, müşahidəçilər, BMT-nin aidiyyəti agentlikləri, qurumları və digər maraqlı tərəflər arasında açıq və şəffaf müzakirələrdə BMT-nin mərkəzi roluna dair fikir mübadiləsi aparılacaq.

Sessiya çərçivəsində səmərəli müzakirələrin aparılacağına inanırıq. Sağ olun.

# Vətənin şəhid övladları



**İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatdı. Bu müharibədə rəşadətli Azərbaycan Ordusu İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə işğalçı Ermənistanı döyüş meydanında darmadağın etdi.**

Vətən torpaqlarının azadlığı uğrunda 44 gün davam edən bu savaş milli həmrəyliyimizin rəmzinə çevrildi, tariximizə qürur mənbəyimiz kimi həkk olundu. Möhtəşəm zəfər tariximizi, dövlətçilik irsimizi daha da şərəfləndirdi. Bu Qələbə dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Xalqımız öz haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi, məğlubiyyət damğasını üzərindən götürdü. Bu savaşın nəticəsində dünya bizi həm də qalib xalq kimi tanıdı.

Azərbaycan Ordusu müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdu, necə lazımdırsa cəzalandırdı. Bu müharibədə rəşadətlə döyüşən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti isə öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrildi. Əsgərlərimiz, zabitlərimiz, çavuşlarımız döyüş meydanlarından bütün dünyaya göstərdilər ki, vətən uğrunda mübarizə necə olur. Hər bir vətən övladı igidliyin, cəsarətin, qorxmazlığın nümunəsini yaratdı, qəhrəmanlıq salnaməsi yazdı.

Müharibə itkisiz olmur, həm də torpaq uğrunda ölən varsa, Vətəndir. 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar, şəhadət zirvəsinə ucaldılar. İşağldan azad olunmuş vətən torpaqlarımız şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi bizim üçün.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi dünən yaydığı məlumatda Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusunun həlak olduğunu açıqladı. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirik, onların ölməz ruhu qarşısında baş əyirik!

Şəhidlərimizin qanı yerdə qalmadı, hər birinin qisası döyüş meydanlarında artıqlamasilə alındı.

Azərbaycan xalqı hər zaman mübariz övladlarının şücaətini yüksək qiymətləndirəcək, şəhidlərimizin xatirəsi hər zaman uca tutulacaq. Prezident İlham Əliyevin sərəncamı ilə sentyabr ayının 27-sinin Anım Günü kimi müəyyən edilməsi də şəhidlərimizin ruhuna olan ehtiramın nümunəsidir. ***"Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir",*** - deyə Prezident İlham Əliyevin sərəncamında deyilir.

"Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında" Prezident İlham Əliyevin 3 dekabr tarixli Sərəncamına əsasən, bu gün saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

Vətənin şəhid övladları, bu gün sizin ruhunuz şaddır. Çünki hər qarışı üçün şərəflə mübarizə apardığınız, uğrunda canınızdan keçdiyiniz, qanınızla suvardığınız Vətən torpaqları artıq işğaldan azaddır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**◆Prezidentə yazırlar**

# "Sizin əzminiz, qətiyyətiniz, Ordumuzun yenilməzliyi sayəsində Qələbə sevinci yaşayırıq"

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də digər ölkələrin azərbaycansevər vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir. Onlar İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Zəfəri böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Rusiyanın Krasnoyarsk şəhərindən **Aleksandr Oreşnikov** yazır: "Hörmətli cənab Prezident İlham Heydər oğlu, mən əsgərliyimi Azərbaycanda başa vurmuşam. 1987-1989-cu illərdə indiki Gəncə, ovaxtkı Kirovabad şəhərində yerləşən 104-cü qvardiyanın hava-desant diviziyasında xidmət etmişəm. Dağlıq Qarabağda baş verən faciələrin birbaşa şahidi və iştirakçısı idim. O vaxt xalqınızın yaşadığı iztirabları böyük ürəkağrısı ilə qəbul edirdim. 1993-cü ildə Ağdamın işğalını bir faciə kimi qəbul etdim, çünki bu şəhərə çox bağlı idim və əziz xatirələrim var idi. Sizi və çoxmillətli xalqınızı Qələbə münasibətilə təbrik edirəm. Nəhayət, ədalət zəfər çaldı. Mən buna ürəkdən sevinirəm və səmimi-qəlbdən Sizin fəaliyyətinizin Dağlıq Qarabağ bölgəsinə sülh və firavanlıq gətirəcəyinə inanıram. Sizə və xalqınıza əmin-amanlıq, başınızın üstündə açıq səma arzulayıram".

Yaroslavl şəhərindən **Asman Hüseynovun** məktubunda deyilir: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizi və Azərbaycan xalqını Qarabağın azad olunmasında qazandığınız möhtəşəm Qələbə münasibətilə Rusiyanın Yaroslavl vilayətindəki Azərbaycan icmasının üzvləri adından və öz adımdan təbrik edir, həmçinin Sizə və müzəffər Ordumuza təşəkkürlərimizi bildirirəm. Sizin, rəşadətli Ordumuzun və xalqımızın birliyi sayəsində yüz minlərlə məcburi köçkün öz doğma yurd-yuvasına qayıdacaq. "Yaroslavl Azərbaycanlıları Milli Mədəni Muxtariyyəti" regional ictimai təşkilatı 2011-ci il dekabrın 24-də "Azərbaycan mədəniyyət və təhsil mərkəzini"ni yaratdı. Bu mərkəzin nəzdində müxtəlif bölmələr (Heydər Əliyev Muzeyi, kitabxana, milli çay evi və s.) fəaliyyət göstərir. Mərkəzimiz öz fəaliyyəti ilə Azərbaycan həqiqətlərini yaymağa və milli-mədəni dəyərlərimizi nümayiş etdirməyə xidmət edir. Biz Sizin yürütdüyünüz xarici və daxili siyasəti dəstəkləyir və həmyerlilərimiz arasında geniş təbliğat işləri aparmaqla onları da bu siyasəti dəstəkləməyə sövq edirik. Bizim əsas fəaliyyətimiz Ümummilli Liderimiz Heydər Əliyevin möhtəşəm irsinin və onun dönməz davamçısı İlham Əliyevin ideyalarının təbliği ilə bağlıdır. Cənab Prezident, biz Sizinlə fəxr edirik və əmin edirik ki, Yaroslavlda yaşayan azərbaycanlılar Sizi və siyasi kursunuzu daim dəstəkləyəcəklər".

Türkiyənin Antalya şəhərindən **Üzeyir Tapdıqlı:** "Hörmətli cənab Prezident, bu məktubu yazaraq Sizə hər şey üçün dərin təşəkkürümü bildirirəm. Öncə ölkəmizi inkişaf etdirdiniz, kadr islahatları apardınız, sonra isə bütün xalqımızın həsrətində olduğu Qarabağı azad etdiniz. Mən Antalyada yaşayıram, ürək-damar cərrahlığı sahəsində həkim işləyirəm. İmkan olduqca, vaxt tapdıqca ölkəmizdə baş verənləri izləyirəm. Təbii ki, xalq üçün gördüyünüz işlər sadəcə bu günlər baş verənlərlə kifayətlənmir. Xalqın xeyrinə yüzlərlə önəmli işləriniz olub və yenə olacağına əminəm. Hər şey üçün Sizə təşəkkürlərimi bildirirəm. Bütün Azərbaycan xalqı Sizin arxanızdadır, bundan əmin ola bilərsiniz. Sizi çox sevirik. Ürəyimdəki sözləri, hissləri bir məktuba yerləşdirmək mümkün deyil, İnşallah, nə vaxtsa Sizinlə görüşmək qismət olarsa, ən səmimi təşəkkürlərimi Sizə çatdıraram".

Ağdam sakini **Kərim Yaqubov:** "Hörmətli cənab Prezident, mən və ailəm 27 ildən artıqdır ki, öz doğma kəndimiz - İlxıçı kəndindən uzaq düşmüşük. Şükür Allaha ki, sayənizdə Qarabağ torpağımız, Ağdamımız Sizin komandanlığınız altında rəşadətli və müzəffər Ordumuz tərəfindən yağı düşməndən azad olundu. Aztəminatlı ailənin üzvü olduğum üçün özünüməşğulluq proqramı çərçivəsində dövlət tərəfindən mənə verilmiş xırdabuynuzlu heyvanları işğaldan azad olunmuş doğma kəndimizdə saxlayıb artıracağam. Torpaqlarımızın azad olunması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Allah Sizi və ailənizi qorusun!"

Kəlbəcər sakini **Rasim Əliyev:** "Çox hörmətli cənab Prezident, çox çətin missiyanın öhdəsindən gələrək əzəli Qarabağ torpaqlarımızı erməni təcavüzkarlarından azad etdiniz, mənliyimizi, qürurumuzu özümüzə qaytardınız. Bununla düşmən bir daha qarşısında heç vaxt ərazilərinin işğalı ilə barışmayan güclü xalq gördü. Bu günün sevincini bizə yaşatdığınız üçün ailəm adından və şəxsən öz adımdan Sizə dərin təşəkkürümü bildirirəm. Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Zəfərimiz mübarək olsun!"

Naxçıvandan **Etibar Bababəyli** yazır: "Cənab Prezident, Müzəffər Ali Baş Komandan, Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində ard-arda rayonlarımızın düşmən tapdağından azad edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizin müdrik rəhbərliyinizin nəticəsidir. Sizi və müzəffər Azərbaycan Ordusunu Qarabağın azad olunması münasibətilə təbrik edirəm. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm və qürur duyuram. Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq və onun vəsiyyətinə əməl edərək işğal altındakı torpaqlarımızı, xüsusilə də Şuşa şəhərini işğaldan azad etdiniz. Əziz Prezidentimiz, Siz Şuşanın azad edilməsi xəbərini Şəhidlər xiyabanından xalqa çatdırmaqla mənəvi dəyərlərimizə sadiq, vətənpərvər, qeyrətli Azərbaycan oğlu olduğunuzu bir daha təsdiq etdiniz. 1990-cı ildə Nehrəm kənd ağsaqqalarının Ulu Öndərimiz Heydər Əliyevə Qarabağın düzgün həll variantı haqqında verdikləri sualın cavabı onun vəsiyyətinə və arzusuna tam uyğundur. Son 200 ildə dəfələrlə basılan, qarış-qarış yonulan Azərbaycan torpaqlarının bütövləşməsi, türk dünyası ilə pozulmuş coğrafi ərazilərin bərpa olunması Sizin məqsədyönlü, doğru siyasətinizin nəticəsidir. Naxçıvanla Azərbaycan, Türkiyə ilə Azərbaycan və Azərbaycan üzərindən Türkiyə-Rusiya-dünya ölkələri quru yolunun açılmasını həmişə xəyal etmişik. Bu gün bu gerçəkdir, həqiqətdir, tarixi sənətdir. Güclü və iradəli Prezident, Müzəffər Ali Baş Komandan, bu möhtəşəm hadisə ilə bağlı Siz başda olmaqla bütün xalqımızı təbrik edir və 9 Noyabr - Dövlət Bayrağı Günü ərəfəsində xalqımıza bu sevinci yaşadıb şanlı bayrağımızı Şuşada ucaltmaqla tarix yazdığınızı fəxarətlə vurğulayıram. Sizi və şanlı Ordumuzu möhtəşəm Qələbə münasibətilə şəxsən özüm və ailəm adından ürəkdən təbrik edirik, igid, qəhrəman tarix yazan əsgər və zabitlərimizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayırıq. Şəhidlərimizin ruhu qarşısında baş əyirəm, yaxınlarına səbir diləyirəm! Şəhidlərimizin ruhu şad olsun! Şəhidlərimizə Allah rəhmət etsin! Eşq olsun Ali Baş Komandana! Eşq olsun Ordumuza! Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun! Yaşasın Ali Baş Komandan! Yaşasın Ordumuz! Yaşasın Azərbaycan! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Lənkərandan **Rüstəm Cəfərov** yazır: "Hörmətli cənab Prezident, Sizi torpaqlarımızın işğaldan azad edilməsi və Qələbə qazanmağımız münasibətilə təbrik edirəm. Torpaqlarımızın azadlığı Sizin ölkəmiz naminə yorulmaz fəaliyyətinizin nəticəsidir. Bu yolda Sizə daim müvəffəqiyyətlər arzu edirəm. Eşq olsun Azərbaycan Ordusuna, yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

Babək rayonundan **Allahverdi Həsənov:** "Müzəffər Ali Baş Komandan, Siz bu Vətən müharibəsində erməni faşistləri üzərində qazandığınız möhtəşəm Qələbə ilə eyni zamanda onların yüz illərdən bəri Naxçıvana olan iddialarını puça çıxardınız. Çox hörmətli Prezidentimiz, Sizin komandanlığınızla yenilməz Ordumuz Qarabağı mənfur düşməndən azad etdi, möhtəşəm Qələbə qazandı. Bu Qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq. Cənab Prezident, qazandığımız Qələbənin mahir təşkilatçısı, baş memarı Sizsiniz. Uca Tanrı Sizi qorusun! Zəfərimiz mübarək olsun!"

Gəncə şəhərindən **Nailə Bağırova:** "Cənab Prezident, misilsiz Qələbəmiz münasibətilə Sizi təbrik edirəm. Bu müharibə torpaq davası deyil, namus, qeyrət, mərdlik davasıdır. Bu davada qalib olduğunuz üçün xalq Sizə layiq olduğunuz adı verib "Tarix yazan Sərkərdə, xilaskar Prezident". Bütün çıxışlarınızı xalq əzbərləyib. Min illər keçsə də, Azərbaycan durduqca, dünya var olduqca, Sizin adınız tək Azərbaycan tarixində deyil, dünya tarixində qalacaq. Azərbaycan xalqının özünəinamını, mənəviyyatını, mərdlik, cəsarət, dostluq, səbir kimi keyfiyyətlərini qaytardığınız üçün Sizin qarşınızda baş əyirəm. Sağ olun, var olun. Allah Sizi və Sizin rəhbərliyiniz altında bu qələbəni bizə gətirən şanlı Ordumuzu qorusun, Haqq yolunda şəhid olanlara rəhmət eləsin!"

Beyləqandan **Kənan Hümbətli:** "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Siz Ümummilli Lider Heydər Əliyevin başladığı böyük yolu layiqincə davam etdirirsiniz. Siz böyük siyasi Lider, strateq, əsl Komandan olmaqla bərabər, layiqli övladsınız. Sizi və xalqımızı Qələbə münasibətilə təbrik edirəm. Bütün idman yarışlarında və digər istiqamətlərdə könüllü kimi fəaliyyət göstərən Azərbaycan vətəndaşları, xüsusilə gənclər bu günlər qazanılan qələbədə də könüllü kimi ilk sırada idi. Hər zaman fəaliyyətimizlə xalqımız, millətimiz və dövlətimiz üçün yararlı olmağa hazırıq. Sizin rəhbərliyinizlə könüllülərin Vətən uğrunda xidmətləri gələcəkdə də ölkəmizə rifah gətirəcək. Daim Sizin əmrinizlə irəli getməyə hazırıq".

# İqtidarın siyasi dialoq təşəbbüsləri davam edir







**Azərbaycanda iqtidar-müxalifət dialoqunun inkişafı Prezident İlham Əliyevin dövlətçilik siyasətinin prinsipial istiqamətlərindəndir. Təqdirəlayiq haldır ki, ölkədə yeni siyasi konfiqurasiyanın formalaşmasında müxalifət partiyaları yaxından iştirak edirlər.**

Sözügedən hal bilavasitə demokratik münasibətlərin təzahürüdür. Məlumat verildiyi kimi, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin mütəmadi şəkildə partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri təşkil olunur.

AZƏRTAC xəbər verir ki, bu səpkidə növbəti görüşlər ayrı-ayrılıqda videokonfrans formatında dekabrın 2-də Milli Məclisin deputatları - Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, həmçinin Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə və Milli Vəhdət Partiyasının sədri Yunus Oğuz ilə keçirilib.

Görüşlərdə Vətən müharibəsində qazanılmış böyük Qələbə, Ordumuzun şücaəti, Azərbaycanın keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə keçməsi, siyasi həmrəylik istiqamətində əldə olunmuş uğurların qorunması, COVID-19 pandemiyası ilə mübarizədə vətəndaşların fəallığı, VI çağırış Milli Məclisin fəaliyyəti, "Siyasi partiyalar haqqında" Qanunun yeni layihəsi və bir sıra digər önəmli mövzular müzakirə edilib.

Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, əslində, dünyaya yeni hərbi strategiya nümayiş etdirib. Əminliklə vurğulanıb ki, Azərbaycanın sözügedən təcrübəsi bir çox ölkələr tərəfindən öyrəniləcək. Belə ki, cəmi 44 gün davam edən müharibə, əslində, fərqli hərbi strategiyaların savaşı idi. Görüş zamanı xüsusi olaraq qeyd edilib ki, müharibədən sonrakı dövrdə aparılacaq sərt informasiya müharibəsində də siyasi həmrəyliyin nümayişi olduqca vacibdir. Odur ki, siyasi partiyaların birliyinin və qarşılıqlı dəstək mühitinin qorunması strateji vəzifədir.

Administrasiyanın rəsmisi mövzunu inkişaf etdirərək, təşkil olunan görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 dekabr tarixli Qələbə nitqinə müraciət edərək sözügedən çıxışdan sitat gətirib: "Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur".

Prezidentin bu sözlərini, əslində, ölkəmizi mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsinə çıxardığını vurğulayan Ə.Vəliyev Azərbaycan cəmiyyətinin bundan sonra da aparılacaq islahatlara hazır olmasının vacibliyini bildirib.

"Vətən müharibəsində əldə olunmuş Qələbə eyni zamanda Azərbaycanda 1 milyondan çox qaçqın və məcburi köçkün probleminin həlli deməkdir. Odur ki, sözün əsl mənasında, Azərbaycanı yaxın gələcəkdə böyük quruluş işləri gözləyir", - deyən Administrasiya rəsmisi sözügedən istiqamətdə də əməkdaşlığın önəmli olduğunu bildirib.

Adıçəkilən görüşlər əsnasında Qələbənin, eyni zamanda şəhidlərin qanı hesabına əldə olunduğunu qeyd edən Ə.Vəliyev vurğulayıb ki, düşmənin mülki əhalini atəşə tutmasını da unutmaq olmaz və bu kimi faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq prinsipial vəzifədir. Bunu əsas tutaraq bütün görüşlərdə Vətənin şəhid olmuş övladlarına Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, yaralılara isə şəfa dilənilib.

Ölkədə başlamış islahatların səmərəliliyi mütləq müvafiq qanunvericilik bazası ilə dəstəklənməlidir. Bu mənada Milli Məclisin rolunu vurğulayan Ə.Vəliyev islahatların ruhuna və demokratik dəyərlərin inkişafına dəstək olacaq yeni qanun layihələrinə böyük ehtiyac olduğunu bildirib. Odur ki, çeviklik, müasirlik və innovativlik kimi keyfiyyətlər müasir Milli Məclisin əsas xüsusiyyətlərinə çevrilməlidir.

Həmçinin görüşlərdə bütün dünyanı narahat edən COVID-19 pandemiyası və müşahidə olunan tendensiyalar müzakirə edilib. Ölkəmizdə koronavirusa yoluxma sayı Prezidentin rəhbərliyi ilə qəbul edilmiş qərarlar nəticəsində mümkün qədər minimal səviyyədə saxlanılıb. Bundan əlavə, dövlət başçısının göstərişi ilə modul tipli yeni xəstəxanaların, həmçinin tibbi maska və dezinfeksiya vasitələri istehsal edən müəssisələrin istifadəyə verilməsi, zəruri tibbi avadanlıqların Azərbaycana gətirilməsi, xaricdən həkim-mütəxəssislərin ölkəmizə dəvət edilməsi pandemiya ilə mübarizəyə müsbət təsir göstərib.

Görüşlər zamanı siyasi partiyaların fəaliyyəti haqqında fikir mübadiləsi də aparılıb. Qeyd olunub ki, siyasi partiyaların fəallığı Azərbaycanda vətəndaş cəmiyyətinin əsaslarının inkişafı üçün zəmin yaradır. Bu səbəbdən də dövlət tərəfindən siyasi partiyalara ayrılan diqqət məhz demokratiyanın inkişafına yönəlmiş sərmayə kimi dəyərləndirilməlidir.

Partiya sədrləri Fazil Mustafa, Qüdrət Həsənquliyev, Arzuxan Əlizadə və Yunus Oğuz çıxış edərək dövlət başçısı İlham Əliyevin Azərbaycanda "Anım Günü", "Zəfər Günü", həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunmasına dair sərəncamlarını yüksək qiymətləndirib, bu addımların ölkəmizdə milli birliyin inkişafına əvəzsiz töhfə olacağına əminliklərini bildiriblər.

Görüşə görə təşəkkürlərini bildirən partiya sədrləri dövlətçiliyimizin, iqtidar-müxalifət arasında dialoqun və yeni siyasi konfiqurasiyanın inkişafına hər zaman dəstək olacaqlarını vurğulayıblar.

## "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2272; 2018, № 6, maddə 1201; 2020, № 2, maddə 102, № 4, maddə 414, № 5, maddə 545) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.5-ci bənddə ikinci halda "mülkiyyətinə (balansına)" sözləri "və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə dövlət orqanlarının (qurumlarının), habelə qeyri-kommersiya hüquqi şəxslərinin mülkiyyətinə (balansına, istifadəsinə)" sözləri ilə əvəz edilsin;

1.2. 11.1-ci bənddə "tələblərinə" sözü "7.5-ci bəndinə" sözləri ilə, "mülkiyyətinə (balansına)" sözləri ", müvafiq dövlət orqanlarının (qurumlarının), habelə qeyri-kommersiya hüquqi şəxslərinin mülkiyyətinə (balansına, istifadəsinə)" sözləri ilə əvəz edilsin;

1.3. 11.2-ci bənddə "mülkiyyətinə (balansına)" sözləri ", müvafiq dövlət orqanlarının (qurumlarının), habelə qeyri-kommersiya hüquqi şəxslərinin mülkiyyətinə (balansına, istifadəsinə)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 2 dekabr 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə

Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan!

Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə münasibətilə Sizi, Azərbaycan dövlətini və əziz Azərbaycan xalqını Bolqarıstandakı Azərbaycan diasporunun üzvləri olaraq ürəkdən təbrik edirik.

Bu çətin günlərdə Sizin rəhbərliyinizlə Azərbaycan Ordusu xalqımızın Prezidentimizə və əsgərimizə olan inamını, öz gücünə etimadını fəxarətlə doğrultdu. Bu nailiyyətlər heç şübhəsiz ki, Sizin uğurla həyata keçirdiyiniz uzaqgörən siyasət nəticəsində qazanıldı. Bütün dünya azərbaycanlıları kimi, Bolqarıstanda yaşayan azərbaycanlılar da bu gün çox qürurlu və olduqca məğrurdurlar. Siz ordusu xalq olan Azərbaycan yaratdınız və bu iftixar Sizin əsərinizdir.

Böyük sevinc və qürur hissi ilə qeyd etdiyimiz bu şanlı Qələbə bütün dünyaya Ali Baş Komandan olaraq Sizin möhkəm iradənizi, Azərbaycan xalqının həmrəylik ruhunu və Azərbaycan Ordusunun döyüş əzmini, eləcə də potensial və bacarığını sübut etdi. Məhz Sizin səyləriniz nəticəsində öz təşkilat strukturuna, təlim imkanlarına, hərbi təchizatına və digər xüsusiyyətlərinə görə yüksək standartlara cavab verən Azərbaycan Ordusu peşəkarlığı və əzmkarlığı ilə Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilib. Mahir sərkərdə olaraq Sizin öndərliyinizdə qazanılmış bu möhtəşəm Qələbə tariximizdə şanlı və əlamətdar hadisə olaraq yer alacaqdır. Bu Qələbəni xalqımıza yaşadan Müzəffər Ali Baş Komandana və şanlı Azərbaycan əsgərinə təşəkkür etməyi özümüzə borc bilirik.

Bu gün sevincimizin və rəhbərimizə olan güvənimizin həddi-hüdudu yoxdur. Böyük sərkərdəlik məharəti ilə idarə etdiyiniz Azərbaycan Ordusunun zəfər yürüşü siyasi müstəvidə də qazanılan zəfərlə ilə başa çatdı. Azərbaycan Prezidentinin iradəsi və Azərbaycan Ordusunun qətiyyəti çarəsizində tab gətirə bilməyəcəyini, məhvə düçar olacağını anlayan düşmən məğlubiyyətini etiraf edərək diz çökməyə məcbur oldu. Şəhid analarının ürəyi rahat olsun, şəhidlərimizin məzarı nurla dolsun, çünki Sizin polad iradəniz sayəsində onların qanı yerdə qalmadı. Biz inanırıq ki, uzun illər ərzində ölkəmizin müstəqilliyi və təhlükəsizliyi üçün böyük təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli ilə Azərbaycan Respublikası daha yüksək sürətlə inkişaf edərək yeni üfüqlərə qədəm qoyacaqdır.

Bu ağır günlərdə qəlbi daim doğma Azərbaycanımızla döyünən vətəndaş və soydaşlar olaraq Sizə ən xoş diləklərimizi çatdırmaq istəyirik. Fürsətdən istifadə edərək doğma Vətənimizin, milli dövlətçiliyimizin tərəqqisi naminə göstərdiyiniz çətin və şərəfli xidmətinizə də Sizə böyük nailiyyətlər, əvəzolunmaz müvəffəqiyyətlər arzu edirik.

Yaşasın Müzəffər Ali Baş Komandan!
Yaşasın Azərbaycan xalqı!
Yaşasın Azərbaycan Ordusu!
Qarabağ Azərbaycandır!

*Dərin hörmətlə,*
*Bolqarıstandakı Azərbaycan diasporunun üzvləri:*

***Natella Abdullayeva,***
***Nərgiz Stefanova,***
***Ellada Dotçeva,***
***Sofiya Şiqayeva-Mitreska,***
***Kamalə Məmmədova,***
***Nərgiz Əhmədova-İvanova,***
***Todor İvanov***

## İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik tədbirləri gücləndirilir

Müzəffər Azərbaycan Ordusunun sentyabrın 27-dən noyabrın 10-dək keçirdiyi uğurlu əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizlik tədbirləri gücləndirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildirilib ki, Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları rayonun işğaldan azad edilmiş Suqovuşan və Talış kəndlərində xidməti fəaliyyəti bərpa ediblər. Kəndlərin ərazisində təhlükəsizliyi təmin etmək üçün sahə inspektorları təyin edilib və xidməti post qurulub.

## *Pərviz ŞAHBAZOV:* "2023-cü ildə Azərbaycanda təbii qaz hasilatı illik 50 milyard kubmetrə çatacaq"

2023-cü ildə Azərbaycanda təbii qaz istehsalı illik 50 milyard kubmetrə, "Şahdəniz" yatağında isə 25,3 milyard kubmetrə çatacaq.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, dekabrın 3-də "İqtisadi artımın bərpası və ümumi rifaha doğru: dayanıqlı dünya üçün təbii qazın imkanları" mövzusuna həsr edilmiş 7-ci Beynəlxalq Enerji Forumu - Beynəlxalq Qaz İttifaqı Nazirlərinin Qaz Forumu keçirilib. Tədbirdə Azərbaycanın energetika naziri Pərviz Şahbazov da iştirak edib. Malayziya hökumətinin evsahibliyi ilə virtual formatda təşkil olunmuş forumda inkişaf etməkdə olan bazarlarda təbii qazın rolu, təbii qaz bazarlarında yeni perspektivlər, dayanıqlı gələcəyə xidmət edəcək və dünya qaz bazarlarında dinamik inkişafı dəstəkləyən enerji siyasəti və biznes strategiyaları haqqında fikir mübadiləsi aparılıb.

Forum çərçivəsində təşkil olunmuş "Genişlənməkdə olan qaz bazarlarında imkanlar: yeni reallıqlar şəraitində istehsalçı-istehlakçı perspektivləri" mövzusunda nazirlərin dəyirmi masasında çıxış edən P.Şahbazov "Cənub qaz dəhlizi" layihəsi haqqında geniş məlumat verib və bildirib ki, cari ilin sonundan etibarən təbii qazın Avropaya nəqlinə başlanacaq. Eyni zamanda ayrı-ayrılıqda TANAP və TAP layihələri haqqında da məlumat verilərək həm bu kəmərlərin, həm də ümumilikdə "Cənub qaz dəhlizi"nin gələcəkdə nəql imkanlarının genişləndirilməsi və daha geniş coğrafiyaya, Cənub-Şərqi Avropa və Balkanlara qaz nəqli perspektivlərinin olduğu bildirilib.

Çıxışda həmçinin Azərbaycanda bu il 38 milyard kubmetr proqnozlaşdırılan qazın 2023-cü ildə təxminən 50 milyard kubmetrə, "Cənub qaz dəhlizi"nin əsas mənbəyi olan "Şahdəniz" yatağından illik hasilatın bu il 18,7 milyard kubmetrə, 2023-cü ildə isə 25,3 milyard kubmetrə çatacağının gözlənildiyi qeyd edilib. Bildirilib ki, indiyə qədər bu yataqdan təxminən 133 milyard kubmetr qaz çıxarılıb, 88,6 milyard kubmetrdən çox qaz ixrac olunub.

Azərbaycanın əks-hücum əməliyyatı və sonrakı siyasi həll mərhələsi ilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizin azad edildiyi və 30 illik Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduğu, bununla da Azərbaycanda enerji, o cümlədən qaz infrastrukturuna hərbi təhdidlərin artıq keçmişdə qaldığı da diqqətə çatdırılıb.

Forumda 100-dək yüksəksəviyyəli hökumət nümayəndəsi, o cümlədən nazirlər, sənaye liderləri, beynəlxalq təşkilatların rəhbərləri və ekspertlər iştirak ediblər.

## Müdafiə naziri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı ilə görüşüb



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-leytenant Rüstəm Muradov ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə Bəyanatının müddəalarının icrası məsələləri müzakirə olunub.

## Azərbaycan xarici işlər nazirinin Türkiyə və Rusiya XİN rəhbərləri ilə telefon danışığı olub

**Dekabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazirlər ATƏT-in Nazirlər Şurasının 27-ci iclası ilə bağlı, eləcə də qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.

## *Ceyhun BAYRAMOV:* "Regional sülh və təhlükəsizliyə ciddi təhlükə yaradan münaqişələrin əsas səbəbləri beynəlxalq hüquqa və ATƏT-in prinsiplərinə uyğunsuzluqdur"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 27-ci iclasında iştirak edib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən xarici işlər naziri Ceyhun Bayramov deyib: "Bu il biz iştirakçı dövlətlər üçün ümumi təhlükəsizlik təməlini təşkil edən Helsinki Yekun Aktının 45-ci ildönümünü və Yeni Avropa üçün Paris Xartiyasının 30-cu ildönümünü qeyd edirik. Helsinki Yekun Aktında təsbit edilmiş və Paris Xartiyasında bir daha təsdiqlənmiş prinsiplər, xüsusilə suveren bərabərlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı ilə əlaqəli olan prinsiplər hər zamankı kimi qüvvədə qalır və münasibətlərimizin əsasını təşkil edir".

Regional sülh və təhlükəsizliyə ciddi təhlükə yaratmaqda davam edən zorakı münaqişələrin əsas səbəblərinin arxasında beynəlxalq hüquqa və ATƏT prinsiplərinə uyğunsuzluğun dayandığını söyləyən C.Bayramov bildirib: "Bu təntənəli tədbirdə iştirakçı dövlətlər hər hansı istisna, ikili standartlar, coğrafi və ya digər üstünlükləri olmadan Helsinki Yekun Aktının prinsiplərinə qeyd-şərtsiz hörməti və onların yerinə yetirilməsini təmin etmək üçün öhdəliklərini bir daha təsdiqləməlidirlər".

Nazir qeyd edib ki, noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanat Ermənistanla Azərbaycan arasında təxminən 30 ildir davam edən silahlı münaqişəyə son qoymaq üçün zəmin yaratdı. Bu Sazişin həyata keçirilməsi bütün hərbi əməliyyatların dayandırılmasını, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılmasını təmin etdi.

Bu Bəyanat məcburi köçkünlərin və qaçqınların BMT QAK-ın nəzarəti altında evlərinə qayıtması ilə bağlı vacib müddəanı özündə ehtiva edir.

Eyni zamanda razılaşma bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrində olan maneələrin aradan qaldırılmasını nəzərdə tutur, Azərbaycanın əsas ərazisi ilə onun Naxçıvan Muxtar Respublikası arasında əlaqə daxil olmaqla, Ermənistan və Azərbaycan arasında hər iki istiqamətdə insanların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsiz hərəkətini təmin edir.

Üçtərəfli Bəyanata əsasən, Ermənistan və Azərbaycan arasında razılaşmaların həyata keçirilməsinə nəzarət etmək üçün Rusiya Federasiyası və Türkiyənin Birgə Monitorinq Mərkəzi yaradılacaq.

Bu razılaşmanı reallığa çevirmək üçün verdikləri töhfələrə görə Rusiya Federasiyasına və Türkiyə Respublikasına təşəkkürünü bildirən C.Bayramov qeyd edib: "Bu qonşu dövlətlər Cənubi Qafqaz regionunda çoxdan gözlənilən sülh və sabitliyi təmin edəcək razılaşmanın zamini kimi mühüm rol oynayırlar.

Sülh, bərpa və yenidənqurma fəaliyyətinin davam etdirilməsi, qayıdan məcburi köçkünlər və qaçqınlar daxil olmaqla, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi mütləq şəkildə prioritet vəzifə olmalıdır. Bu məqsədlə Azərbaycan 1991-ci il Birləşmiş Millətlər Təşkilatının humanitar yardım barədə rəhbər prinsiplərinə tam uyğun olaraq bölgədəki sülh və sabitliyə töhfə vermək niyyətində olan BQXK, BMT QAK və BMT-nin digər qurumları, habelə ayrı-ayrı dövlətlər də daxil olmaqla, aidiyyəti beynəlxalq tərəfdaşlarla işləməyə hazırdır".

## *Səməd SEYİDOV:* "Dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallığı qəbul etməsi mütləq zərurətə çevrilib"

**"Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa son müraciətində dünya ictimaiyyətinin Azərbaycanın yaratdığı yeni reallığı qəbul etməsi ilə bağlı fikirlər söylədi.**

Biz bunun təzahürlərini konkret olaraq beynəlxalq münasibətlərdə görürük. Kimlərinsə xoşuna gəlməsə və buna görə də hansısa cəhdlər göstərilsə belə, bu reallığı nəzərə alıb qəbul etmək artıq mütləq zərurətə çevrilib".

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.

Səməd Seyidov bildirib ki, bir neçə gün bundan əvvəl Fransa parlamentinin yuxarı palatası - Senat çox qərəzli, lüzumsuz və heç bir reallığı əks etdirməyən sənəd qəbul etdi. Bu sənədin qəbul edilməsi, əslində, Fransa üçün böyük problemlər yaradır, nəinki Azərbaycan üçün. Çünki Azərbaycanın yaratdığı reallığı dəyişdirmək mümkün deyil. Fransa Senatı ancaq kapitulyasiyaya uğramış "bacısını" qoruyub saxlamaq, qondarma rejimə hər hansı formada dəstək vermək üçün öz milli maraqlarının üstündən xətt çəkərək belə bir qərar verdi.

Fransaya yaxın ölkələrdən biri olan Belçikanın parlamentində də oktyabrın əvvəlində bənzər layihə təqdim edilmişdi. O layihə də Fransa Senatının qətnaməsindən fərqlənmirdi. Ancaq müəyyən müddət keçəndən sonra müzakirələr zamanı bu layihə Belçika parlamentinin beynəlxalq əlaqələr komitəsi tərəfindən kənarlaşdırılmışdı. Onda ermənipərəst qüvvələr komitəyə ikinci layihəni təqdim etdilər. Bu layihə də əvvəlkindən ciddi şəkildə fərqlənməyən və Fransa Senatının sənədinə uyğun gələn bir layihə idi. Bu ikinci layihə də qəbul olunmadı. Nəhayət, dekabrın 2-də Belçika parlamentinin beynəlxalq əlaqələr komitəsində yeni bir sənəd gündəmə gəldi. Düzdür, bu sənəddə də qərəzli fikirlər mövcuddur. Lakin bu sənəddə 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə istinad var. İkincisi, bu sənəddə Azərbaycana qarşı hər hansı sanksiyanın tətbiq olunması məsələsi gündəmdən çıxarılıb. Üçüncüsü, bu sənəddə qondarma rejimin tanınması, onunla əlaqələrin qurulması məsələsi yoxdur. Beləliklə, Belçika parlamentində Fransa Senatının qəbul etdiyi qətnaməyə bənzər bir sənəd başqa formada müzakirə edilir.

"Görünən odur ki, zaman keçdikcə beynəlxalq qanunu nəzərə almamaq mümkün deyil. Bu da Azərbaycan Prezidentinin apardığı uğurlu siyasətin konkret nəticələrindən biridir. Bu, onu göstərir ki, Azərbaycana qarşı nümayiş etdirilən qərəzli yanaşma getdikcə zəifləyəcək, gündəmdən silinəcək. Azərbaycan sərhəd toxunulmazlığını, ərazi bütövlüyünü möhkəmləndirmə prosesini yüksək səviyyədə təşkil etdikcə bu proses də geridönməz bir xarakter alacaq. Necə ki dünən Belçika parlamentinin komitəsində bu əlavələrin edilməsi qeyd edilən istiqamətdə bir siqnaldır", - deyə Səməd Seyidov qeyd edib.

## Ölkəmizdə hazırlanmış ilk yüksək texnologiyalı protezlər Qarabağ müharibəsi əlillərinə verilib

3 dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Günündə əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində innovativ addım atılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yüksək texnologiyalı protezlərin istehsalı sexində hazırlanmış ilk iki protez nümunəsi təqdim edilib. Aşağı ətraf protezləri Qarabağ müharibəsi əlilləri Malik Orucova və Ayaz Məmmədova verilib.

Tədbirdə nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Cavid Əbdul-Qədirov qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamı ilə müəssisədə yüksək texnologiyalı protezlərin hazırlanması sexinin qurulması dövlət başçısının əlilliyi olan şəxslərə xüsusi qayğısının növbəti göstəricisidir. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, C.Əbdul-Qədirov Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin reabilitasiyasına qayğısından bəhs edərək bildirib ki, 2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Fond tərəfindən müvafiq layihə çərçivəsində Almaniya, İslandiya və İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı protez məhsulları ilə təmin ediliblər.

Agentliyin sədri ölkəmizdə əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təminatı işinin davamı kimi bu ilin 11 ayında 10 min 424 əlilliyi olan şəxsə 26 min 700-dək reabilitasiya vasitəsi, o cümlədən 900-ə yaxın əlil arabası verildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə reabilitasiya sistemi müasirləşdirildiyi kimi, reabilitasiya vasitələrinin istehsalı praktikası da daim təkmilləşdirilir, qabaqcıl dünya standartlarına uyğunlaşdırılır. Yüksək texnologiyalı protezlərin hazırlanması sexi dünyanın məşhur protez istehsalçılarından olan "OTTO BOKK" şirkəti (Almaniya) ilə əməkdaşlıq şəraitində qurulub. Burada həmin şirkətin "Genium" sisteminin, yəni yüksək aktivlik və funksionallıq dərəcəsi olan protezlərin istehsalı sisteminin standartları əsasında protez istehsalı nəzərdə tutulub. Bu sistem üzrə hazırlanan protezlər elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, sabit, təhlükəsiz və inamlı hərəkətə imkan yaradır, rahatlığı xeyli artırır. Proqram təminatı ilə nizamlanan həmin protezləri istifadə edən şəxs istədiyi rejimi seçərək onlarla rahat hərəkət imkanı qazanır.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, yüksək texnologiyalı protezlər verilmiş müharibə əlilləri Malik Orucov və Ayaz Məmmədov protez istehsalı sahəsində müasir yeniliklərin tətbiqinin təqdirəlayiq olduğunu bildiriblər. Onlar əlilliyi olan şəxslərin reabilitasiya imkanlarının artırılmasına göstərdiyi böyük qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## GUAM Parlament Assambleyasının komitələrinin birgə iclası keçirilib

Dekabrın 2-də GUAM Parlament Assambleyası komitələrinin videokonfrans formatında 4-cü birgə iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Onlayn iclasda Milli Məclisin GUAM PA-dakı nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev, nümayəndə heyətinin üzvləri Nəsib Məhəməliyev, Əli Məsimli, Cavid Osmanov və Qüdrət Həsənquliyev iştirak ediblər.

Gündəlik təsdiqləndikdən sonra Milli Məclisin GUAM PA-dakı nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev gündəliyin ikinci məsələsi - "GUAM məkanında ərazi münaqişələrinin həllinin hüquqi aspektləri" mövzusunda çıxış edib. Bildirib ki, bu ilin 27 sentyabr-10 noyabr tarixlərində Ermənistan-Azərbaycan münaqişəsinin növbəti aktiv dövrünün şahidi olduq. Hansı ki, Azərbaycanın tam qələbəsi ilə bitdi. Ordumuz döyüş meydanında torpaqlarımızın böyük bir hissəsini işğalçılardan təmizlədi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında birgə Bəyanat imzalandı. Bu sənədə uyğun olaraq Ermənistan 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı Ağdam, Kəlbəcər və Laçın rayonlarını da Azərbaycana təhvil verdi. Azərbaycan münaqişədən əvvəl orada yaşamış və qeydiyyatı olmayan erməni əhalinin çıxarılmasına təkid etmədi və onları öz vətəndaşları sayaraq orada qalıb yaşamalarına etiraz etmir. Hazırda razılaşmanın digər mərhələsinin icrası üçün azərbaycanlı əhalinin öz doğma torpaqlarına qayıtmaları təmin olunmalıdır. Onlar Ermənistanın aqressiyası nəticəsində öz torpaqlarını tərk etmək məcburiyyətində qalmış və öz ölkələrində məcburi köçkün olmuşdular.

Bu il sentyabrın 27-də hərbi əməliyyatların yenidən başlaması barədə danışan Elnur Allahverdiyev bildirib ki, buna Ermənistan rəhbərliyinin məsuliyyətsiz və beynəlxalq hüquqa zidd davranışları səbəb olmuşdu. Deputat xatırladıb ki, bu ilin iyulunda GUAM-ın Büro iclasında Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində törətdiyi təxribatları müzakirə etmişdik. Bu təcavüz nəticəsində Azərbaycanın hərbi və mülki şəxsləri öldürüldü və yaralandı. Bundan sonra avqust ayında Ermənistanın Azərbaycanın ərazisinə daxil olmuş diversiya qrupu zərərsizləşdirildi. Həmin qrupun rəhbəri təsdiqlədi ki, Ermənistan Azərbaycanın yeni ərazilərinin işğalı üçün ciddi hazırlıq işləri görür. Ermənistanın müdafiə naziri yeni doktrina elan etdi. Həmin vaxt Ermənistan hökuməti Cenevrə Konvensiyasına zidd olaraq Livan və Suriyadan erməni əhalinin Azərbaycanın işğal olunmuş ərazilərinə köçürülməsi prosesinə başladı. Elnur Allahverdiyev diqqətə çatdırıb ki, bütün yuxarıda deyilən faktlar yeni müharibənin alovlanmasına səbəb oldu. Azərbaycan isə öz gücü ilə BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasını təmin etdi. Deputat Azərbaycanın ədalətli mövqeyini təsdiqləyən və beynəlxalq sənədlərdə əksini tapmış bir sıra prinsipləri də iştirakçıların diqqətinə çatdırdı. Çıxışının sonunda Elnur Allahverdiyev Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərinə görə GUAM ölkələrindən olan həmkarlarına təşəkkürünü bildirib.

Sonra tədbirdə GUAM-a üzv olan dövlətlərdə ərazi münaqişələri və onların siyasi nəticələri, üzv dövlətlər arasında ticari-iqtisadi əlaqələrin inkişafında perspektivlər və imkanlar, GUAM məkanında azad ticarət zonalarının inkişafı, üzv ölkələrdə nəqliyyat dəhlizinin inkişafı və logistik ünsiyyətin yaxşılaşdırılması, gömrük sahəsində əməkdaşlıq, quruma üzv ölkələrdə COVID-19 pandemiyası ilə əlaqədar vəziyyət nəzərə alınmaqla elm, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq imkanları mövzularında fikir mübadiləsi aparılıb, müvafiq qərarlar qəbul edilib.

Çıxış edənlər Azərbaycana ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbriklərini çatdırıblar. Iclasda çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü, deputat Əli Məsimli pandemiyanın təşkilata üzv ölkələr arasında ticarət əlaqələrinə təsirindən danışıb, iqtisadiyyatın bərpası yolları barədə fikirlərini bölüşüb.

Sonra iclasda bir sıra təşkilati məsələlərə baxılıb. Bununla da GUAM Parlament Assambleyası komitələrinin videokonfrans formatında keçirilən 4-cü birgə iclası başa çatıb.

İnnovativ strategiya və taktika

# Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və uzun müddət işğal altında olan ərazilərin azad edilməsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi strateji və taktiki baxımdan unikaldır və dövlət başçısı tərəfindən işlənilmiş innovativ idarəetmə texnologiyalarının praktiki tətbiqinin nəticəsidir.**



Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan hərbi əməliyyatlarda istifadə olunmuş innovativ strategiya və yeni idarəetmə texnologiyaları dünyanın ən nəhəng hərbi qurumu olan ABŞ Müdafiə Nazirliyi (Pentaqon) tərəfindən tədqiq edilir. Yeni idarəetmə texnologiyaları və onların hərbi sahədə də tətbiqinə peşə marağı göstərənlər yalnız Pentaqon generalları deyillər. NATO, bu hərbi-siyasi quruma daxil olmayan dünyanın bir çox inkişaf etmiş ölkələrinin dövlət rəsmləri və hərbi ekspertləri Azərbaycanın müzəffər ordusunun 44 günlük Vətən müharibəsi gedişində fərqli şəraitdə həyata keçirdiyi hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsi strategiya və texnologiyalarını ciddi tədqiqat obyektinə çeviriblər. Belə maraq təsadüfi deyil: Azərbaycanın hərbi qüvvələrinin parlaq strategiya və taktikası, nümayiş etdirdiyi yüksək peşəkarlıq dünyanın tanınmış ekspertləri tərəfindən 21-ci əsr müharibəsinin nümunəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyev tərəfindən işlənilmiş milli inkişaf və təhlükəsizlik strategiyasına görə, yüksək hərbi hazırlıqla paralel diplomatiya və informasiya cəbhələrində də uğurlu fəaliyyət qələbənin vacib amili olmuşdur.

Azərbaycan Respublikasının hərbi təhlükəsizlik sahəsində istifadə etdiyi innovativ strategiya və taktika Prezident İlham Əliyevin dövlət quruculuğunda və dövlət idarəçiliyində dünyada ilk dəfə kompleks şəklində tətbiq etdiyi yeni texnologiyaların bir istiqaməti və məntiqi davamıdır. Sinergetik, komplementar və kompensasion texnologiyalar kompleksinin iqtisadiyyat, sosial, diplomatiya, informasiya təminatı və digər sahələrdə tətbiqi Azərbaycanı bir çox istiqamətlərdə dünya liderinə çevirmişdir. Azərbaycanın bir çox istiqamətlərdə dünya lideri olması əksər beynəlxalq qurumların, o cümlədən BMT, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos Dünya İqtisadi Forumunun sənədlərində də öz əksini tapmışdır. 44 gündə hərb sahəsində nümayiş etdirilən yeni və olduqca yüksək nəticələr ölkənin hərtərəfli innovativ inkişafının bəhrəsidir. Bu prosesin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilmişdir.

Azərbaycan Respublikasının innovativ inkişafı, bu inkişafın mərkəzində insanın, onun bilik və bacarıqlarının dayanması strategiyasının işlənilməsi və həyata keçirilməsi siyasəti 2003-cü ildən sonra xüsusilə sürətlənmişdir. 2003-cü ildə 175 ölkədən 11 000-dən çox nümayəndənin iştirakı ilə baş tutan və informasiya cəmiyyətinin inkişafına həsr edilmiş Dünya Sammitindəki çıxışında Prezident İlham Əliyev "qara qızılın insan kapitalına çevrilməsi" strategiyasını irəli sürdü. Bu strategiyanın başlıca məqsədi neftdən əldə edilən gəlirlərin insanların müasir bilik və bacarıqlarının formalaşmasına, insan potensialının inkişafına, bu potensialın iqtisadiyyatda insan kapitalına çevrilməsi idi. Planlaşdırılmış məqsədlərə nail olmaq üçün ölkədə təhsil, sağlamlıq və idman sahələri dinamik şəkildə inkişaf etdirilir, sosial məsələlər yüksək səviyyədə həll olunur, yeni biliklərə əsaslanan və neftdən asılı olmayan iqtisadiyyat formalaşır, müasir tələblərə cavab verən infrastruktur yaranır. Ölkənin proqressivliyi və ənənəvi olaraq multikultural prinsiplərlə idarə edilməsi bir nümunə kimi qlobal və beynəlxalq toplantıların gündəliyinə daxil edilir. Dövlət idarəçiliyində sinergetik texnologiyalara aid olan insan inkişafına dair fəaliyyətin həyata keçirilməsində, ümumiyyətlə, ölkənin dünyada imicinin formalaşdırılmasında ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Bu xidmətlər sırasında Mehriban xanım Əliyevanın təşəbbüsü ilə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına Azərbaycandan nümunələrin daxil edilməsini xüsusi qeyd etmək lazımdır. Minilliklərlə məlum olan Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Qarabağ atları ilə oynanılan Çovqan atüstü oyunu və bir sıra digər milli qeyri-maddi mədəni irs nümunələrinin UNESCO-nun siyahısına daxil edilməsi 2003-cü ildən başlanılmış və Mehriban xanım Əliyevanın ardıcıl səyləri nəticəsində baş tutmuşdur. Ümumiyyətlə, UNESCO, İSESCO, digər beynəlxalq humanitar, elmi, təhsil, dini, mədəni təşkilatlarla fəal əməkdaşlıq Azərbaycan Respublikasının dövlət inkişafı kursunun yüksək humanitar standartlara cavab verdiyini bütün dünyaya nümayiş etdirib.

Parlaq hərbi-diplomatik qələbənin qazanılmasında informasiya sahəsində həyata keçirilmiş fəaliyyət də çox əhəmiyyətlidir. Hərbi əməliyyatlar zamanı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev dünyanın aparıcı televiziya kanallarına və qəzetlərinə ingilis, rus, türk və Azərbaycan dillərində 30-dan çox müsahibə vermişdir. İnnovativ dövlət idarəçiliyinin vacib tərkib hissəsi olan bu müsahibələr yüksək intellekt və diplomatiya məharətinin nümunəsi kimi hələ uzun illər tədqiq ediləcək. Bunların arasında Prezident İlham Əliyevin ABŞ-nın "Foks Nyus" televiziyasına müsahibəsi xüsusi qeyd olunmalıdır. Açıq-aşkar qərəzli sualların cavabında Prezident İlham Əliyev ölkənin qısa müddətdə uğurlu inkişafına aid statistik məlumatları sadalayır və müxbirə "öz ölkəniz ilə müqayisə edin" təklifini verirdi. Belə inadlı təklif beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə Azərbaycanın əksər mühüm iqtisadi və sosial göstəricilərinin ABŞ və bir sıra digər inkişaf etmiş ölkələrdəkindən daha yüksək olmasından qaynaqlanırdı. Bu fakt dünyanın 21-ci əsr üçün əsas prioriteti olan davamlı inklüziv inkişafa da aiddir. İnklüziv inkişaf tərəqqinin elə bir yoludur ki, bu zaman ölkə hərtərəfli inkişaf edir və prosesin müsbət nəticələrini bütün vətəndaşlar hiss edir. Dünya ölkələrində inklüziv inkişafın səviyyəsi beynəlxalq təşkilatlar tərəfindən xüsusi indeks ilə dəyərləndirilir. Şəkil 1-də Azərbaycan Respublikası və bir sıra inkişaf etmiş ölkələrin inklüziv inkişaf indeksi barədə məlumatlar təqdim edilmişdir. Şəkil Davos Dünya İqtisadi Forumu və Dünya Bankının hesabatları əsasında tərtib edilmişdir.




**Şəkil 1.** Azərbaycan Respublikasının inklüziv inkişaf indeksinin müqayisəli təhlili. *Məlumat mənbəyi: Davos Dünya İqtisadi Forumu, Dünya Bankı, 2018, 2019.*

Ölkələrin inklüziv inkişaf indeksi 12 iqtisadi, sosial, demoqrafik, ekoloji göstəricilər əsasında hesablanır. Göstəricilər arasında əhalinin gəlirləri, bu gəlirlərin cəmiyyətdə ədalətli bölünməsi, işsizliyin səviyyəsi, ölkənin xarici borcunun həcmi, əhalinin demoqrafik strukturu, iqlim dəyişikliklərinə təsirin səviyyəsi və s. yer almışdır. Şəkildən göründüyü kimi, beynəlxalq təşkilatların dəyərləndirmələrinə görə, Azərbaycanın inklüziv inkişaf göstəriciləri bir sıra inkişaf etmiş "böyük yeddilik" (G7), Avropa İttifaqına daxil olan ölkələrdən daha yüksəkdir. O da qeyd edilməlidir ki, Şəkil 1-də təqdim olunmuş bütün ölkələrin iqtisadi imkanları Azərbaycan Respublikasından əhəmiyyətli dərəcədə yüksəkdir. Nisbətən az vəsaitin istifadəsi ilə daha yüksək nailiyyətlərin əldə edilməsi intellektə əsaslanır, yalnız yüksəksəviyyəli idarəetmə texnologiyalarının tətbiqi şəraitində mümkündür. Prezident İlham Əliyevin dövlət idarəçiliyində tətbiq etdiyi yeni kompleks texnologiyalar həm sülh, həm də hərbi şəraitdə öz yüksək səmərəliliyini parlaq şəkildə nümayiş etdirdi. Bu nəticə Azərbaycan Respublikasının davamlı inklüziv inkişafda əldə edilən nailiyyətlərinin G7 ölkələri ilə müqayisəsindən də aydın olur (Şəkil 2).




**Şəkil 2.** Azərbaycan və G7 ölkələri: İnklüziv inkişaf indeksinin hər vahidinə sərf edilmiş adambaşına ÜDM (ABŞ dolları alıcılıq qabiliyyəti prioriteti ilə). *Məlumat mənbəyi: Dünya Bankı, 2020, Davos Dünya İqtisadi Forumu, 2018, 2019*

Şəkil 2 göstərir ki, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin nəzəri baxımdan əsaslandırılmış və praktiki olaraq dünyada ilk dəfə dövlət idarəçiliyində tətbiq etdiyi texnologiyalar yüksək səmərəsi ilə fərqlənir. Azərbaycanın hərbi sahədə işlətdiyi innovativ texnologiyalar kimi, iqtisadi və sosial sahədə də tətbiq olunan texnologiyalar yenidir, ilk dəfə Prezident İlham Əliyev tərəfindən işlənilib praktikada istifadə edilmişdir. Heç şübhə yoxdur ki, bu texnologiyalar da dünyada geniş öyrəniləcək və istifadə ediləcəkdir! Bu qənaətin düzgünlüyü misallarla təsdiqini tapıb. 2019-cu ildə Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz prezidenti, professor Klaus Şvab xüsusi hesabat dərc etmişdir. Hesabatda dünyanın 146 ölkəsinin iqtisadi imkanları və bu imkanlardan sosial sahənin inkişafı üçün nə dərəcədə istifadə edilməsi təhlil edilmişdir. Professor Klaus Şvab 7 ölkə - ABŞ, Almaniya, Danimarka, Braziliya, Cənubi Afrika, Vyetnam və Azərbaycanın göstəricilərinə xüsusi diqqət ayırmışdır. Hesabatda təqdim olunmuş təhlildən aydın olur ki, Azərbaycan Respublikası uğurlu sosial siyasət həyata keçirən və bu məqsədlə iqtisadi imkanlarından dünyada ən səmərəli istifadə edən ölkədir.

Vətən müharibəsi bitəndən sonra ölkə və regionun inkişafında yeni mərhələ başlayır. Ölkə Prezidenti cənab İlham Əliyev xalqa müraciətində yeni mərhələnin azad edilmiş ərazilərin bərpası və inkişafı ilə əlaqədar olacağını qeyd etdi. Azərbaycan Respublikasında dövlət idarəçiliyində tətbiq edilən innovativ texnologiyaların bu mərhələnin də uğurunu təmin edəcəyi şübhəsizdir.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Erməni vandallarından təmizlənmiş ərazilərimizin potensialından maksimum istifadə olunacaq

**Dekabrın 1-də Laçın rayonunun azad olunması ilə Vətən müharibəsi tarixi qələbəmizlə başa çatdı. Artıq Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub.**

Prezident İlham Əliyev hələ Füzuli rayonu işğaldan azad ediləndə bəyan etmişdi ki, erməni vandallarından təmizlənən bütün ərazilərdə geniş quruculuq, abadlıq işləri görüləcək. Həmçinin bildirmişdi ki, düşmən tərəfindən viran qoyulan bu ərazilər əvvəlki vəziyyətindən də abad olacaq. Artıq dövlət başçısı tərəfindən böyük qayıdış üçün lazım olan tapşırıqlar verilib.

Qarabağ torpağı zəngin təbii sərvətlərə malikdir. İşğal dövründə ölkəmizin təbii ki, bu sərvətlərdən faydalanmaq imkanı olmayıb. Ermənilər isə işğal altında saxladıqları torpaqlarımızdakı təbii sərvətləri vəhşicəsinə talan ediblər. Lakin onlar ərazilərimizdə müvəqqəti yaşadıqlarını da unutmurdular. Bu səbəbdən də nə isə tikib ondan istifadə etməyə çalışmırdılar. Onlar həmişə bir gün bu torpaqlara sahiblərinin qayıdacağı qorxusu ilə yaşayıblar. Belə də oldu. İndi bu torpaqlara öz sahibləri qayıdırlar.

Məlumdur ki, Qarabağ bol sulu çaylarına görə ölkəmizin seçilən bölgələrindəndir. Bununla yanaşı, həmin bölgədə elə yerlər var ki, daim küləkli olması ilə diqqəti cəlb edir. Digər tərəfdən, bu ərazilərdə Günəş enerjisindən istifadə etmək imkanları da genişdir. Bir sözlə, bu bölgədə ekoloji cəhətdən bərpaolunan enerjinin istehsalı üçün böyük potensial var. Aparılan elmi araşdırmalar nəticəsində müəyyən edilib ki, bölgədə 4 min meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. İlkin olaraq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında Günəş enerjisi istehsalı üçün 7 perspektiv ərazi müəyyən edilib. Həmçinin Laçın və Kəlbəcər rayonlarının dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metrə çatan ərazilər var və bu, bərpaolunan enerjinin əldə edilməsinə geniş imkanlar açır.

İşğaldan azad olunmuş ərazilərdə tikiləcək bərpaolunan enerji obyektləri təkcə bölgə üçün deyıl, həm də bütövlükdə ölkəmiz üçün böyük əhəmiyyət kəsb edəcək. Üstəlik, həmin stansiyalar fəaliyyətə başladıqdan sonra enerji ixracı potensialımız artacaq. Ən başlıcası isə, bu stansiyalar ölkəmizin enerji təhlükəsizliyinin təminatına əlavə stimul verəcək.

Bu gün Azərbaycan enerji təhlükəsizliyini təmin edən nadir ölkələrdəndir. Onu da vurğulayaq ki, ölkəmiz təkcə neft, qazla bağlı tranzit ölkə deyil, həm də elektrik enerjisinin ötürülməsində bu statusu daşıyır. Azərbaycan Rusiya, Türkiyə, İran və Gürcüstan arasında elektrik enerjisinin tranzitində xüsusi əhəmiyyət kəsb edən ölkədir.

Azərbaycanda əlverişli biznes mühiti və infrastrukturun, makroiqtisadi sabitliyin və xarici sərmayələrin cəlbi üçün münbit şəraitin olmasının nəticəsidir ki, bu gün xarici investorlar iqtisadiyyatımızın bir çox sahələrinə, o cümlədən bərpaolunan enerji sektoruna vəsait qoymaqda maraqlıdırlar. Bu istiqamətdə Səudiyyə Ərəbistanı Krallığının "Acwa Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri ilə 240 meqavat gücündə külək və 200 meqavat gücündə günəş enerjisi layihələrinin reallaşdırılması istiqamətində icra müqavilələri imzalanmışdır.

Ötən dövr ərzində adıçəkilən şirkətlərin investisiyaları hesabına stansiyaların inşasına başlanması üçün imzalanması zəruri olan elektrik enerjisinin alqı-satqısı, elektrik şəbəkəsinə qoşulma və digər müqavilə layihələri hazırlanmışdır. İndi onların razılaşdırma prosesi gedir. Yekun müqavilələr imzalanandan sonra şirkətlər tərəfindən stansiyaların inşasına başlanılması və 2023-cü ilədək istismara verilməsi planlaşdırılır.

Elektroenergetika sisteminin infrastrukturunda görülən əhəmiyyətli işlər və yeni stansiyaların tikintisi ölkəmizin elektrik enerjisinə olan daxili tələbatını tam ödəməklə yanaşı, imkanlarımızı çoxaldır. Ötən 10 ildə 2055,4 MVt gücündə 23 yeni elektrik stansiyası istismara verilmişdir və onların istehsal gücü 7516,5 MVt-a çatmışdır. Hazırda ümumi gücü 1278,8 MVt olan çox sayda su və digər bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyaları fəaliyyət göstərir. İqtisadiyyatın inkişafı və əhalinin rifah səviyyəsinin yüksəlməsi nəticəsində son 10 ildə elektrik enerjisinin istehsalında 39,7 faiz artım olub, yeni istehsal güclərinin yaradılması və 2018-ci ildə həyata keçirilən bərpa proqramı artan tələbatı qarşılamağa imkan verib. İranla əməkdaşlıq çərçivəsində həyata keçirilən su elektrik stansiyalarının tikintisi layihələri, habelə Günəş və külək enerjisindən istifadə sahəsində həyata keçiriləcək investisiya layihələri ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin genişlənməsinə xidmət edəcək.

Azərbaycan dinamik inkişaf edən ölkədir. Buna misal kimi iqtisadiyyatın sürətli inkişafını, ildən-ilə qeyri-neft sektorunda məhsul istehsalının artımını göstərmək olar. Yeni istehsal və xidmət sahələrinin yaradılması ölkəmizdə elektrik enerjisinə olan tələbatı da artırır. Şübhəsiz ki, işğaldan azad edilən ərazilərə insanların qayıdışı, yeni istehsalat sahələrinin və sosial müəssisələrin tikilməsi də enerjiyə olan tələbatı çoxaldacaq. Həmin ərazilərdə tikiləcək yeni enerji istehsalı müəssisələri isə bölgənin elektrik enerjisinə olan tələbatını ödəməklə yanaşı, həm də ixrac potensialımızı yüksəldəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# Fransanın Cənubi Qafqaz ölkələri ilə ümumi ticarət dövriyyəsinin üçdəikisi Azərbaycanın payına düşür

## Belə olan halda Fransa Senatının məlum qətnaməsi oturduğun budağı kəsməyə bənzəyir

Xəbər verildiyi kimi, noyabrın 18-də Fransa Senatına erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamə layihəsi təqdim olunmuş, noyabrın 25-də isə sənəd Senat tərəfindən qəbul edilmişdir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirir ki, qəbul edilən bu qətnamə regionda yeni reallıqların həzm edilə bilməməsini göstərir: "Əslində Azərbaycan Fransanın Cənubi Qafqazda ən iri ticarət partnyorudur. Fransanın Cənubi Qafqaz ölkələri ilə ümumi ticarət dövriyyəsinin üçdəikisi Azərbaycanın payına düşür. Ermənistan və Gürcüstanın Fransa ilə ticarətlərinin ümumilikdə həcmi Azərbaycanın Fransa ilə ticarət dövriyyəsindən iki dəfə azdır. 2019-cu ilin məlumatına əsasən, Azərbaycanın Fransaya ixrac etdiyi məhsulların dəyəri 537 milyon, Fransadan idxal olunan malların dəyəri isə 251 milyon dollar olmuşdur. Müqayisə üçün deyək ki, Ermənistanın 2019-cu ildə Fransaya ixracının dəyəri 8,72 milyon, Fransadan aldığı malların dəyəri isə 82,95 milyon dolları keçməmişdir. Azərbaycan Fransaya ixracın dəyərinə görə Ermənistanı 62, Fransadan idxalın dəyərinə görə isə 3 dəfə önləyir. Ticarət dövriyyəsində belə disproporsiya onu göstərir ki, Fransa Senatı praqmatizm və ədaləti deyil, respublikanın təməl prinsiplərinə zidd olaraq erməni havadarlarını üstün tutur".

V.Qasımlının sözlərinə görə, Azərbaycan-Fransa ticarət dövriyyəsi müsbət dinamikaya malikdir: "2019-cu ildə Azərbaycandan Fransaya ixrac əvvəlki ilə nisbətən 21,5, idxal isə 37 faiz artıb. Fransa Azərbaycanın məhsul ixrac etdiyi ölkələr sırasında 4 faiz payla 11-ci, idxalında isə 1,83 faiz payla 12-ci yerdədir. Azərbaycanın 2019-cu ildə Fransadan idxal etdiyi məhsullar sırasında qatarlar, dəmir yolu və metro avadanlıqları, efir yağları, ətir və kosmetik vasitələr, dərman preparatları, nüvə reaktorları, elektrik avadanlıqları, avtomobil, mebel, işıqlandırma məhsulları və s. var".

Erməni lobbisinin təsiri altında qəbul edilən qərarın Fransa şirkətlərinin Azərbaycandakı mövqelərini zəiflətdiyini deyən icraçı direktor onu da bildirib ki, Azərbaycan bazarında illik 200-300 milyon dollar mal satan, milyardlarla dollarlıq tenderlərdə iştirak edən Fransa şirkətlərinin verdikləri verginin hesabına həmin senatorlar maaş alırlar: "Belə çıxır ki, Fransa Senatı oturduğu budağı baltalamaqla məşğuldur. 10 milyonluq Azərbaycan və 83 milyonluq Türkiyə istehlak bazarlarında Fransa şirkətlərinə çətinlik yaradan senatorları başa düşmək çətindir. Azərbaycan bazarında məhsul satan fransız mənşəli şirkətlər - Michelin, Renault, Citroen, Peugeot, Tefal, Loreal, Dior, Lancome, YvesSaintLaurent, Louis Vuitton, Lacoste, Chloe, Chanel, Nina Ricci, Cartier, Givenchy, Garnier, Danone, Activia, President, Perrier, Evian, Elle&Ville, Doux və s. gərək Senatı başa salsınlar ki, bu şirkətlər Fransa büdcəsinə vergini öz ölkələrinin milli maraqları üçün ödəyirlər, erməni təəssübkeşliyi üçün yox".

Vüsal Qasımlı xüsusi qeyd edib ki, Azərbaycan həm də Cənubi Qafqazda fransız sərmayələrini ən çox cəlb edən ölkədir: "Azərbaycanda 50-dən çox fransız şirkəti fəaliyyət göstərir. Enerji (Total), nəqliyyat (Alstom, Thales, Iveco, Systra), ətraf mühit (Suez CNIM), kənd təsərrüfatı və qida (Lactalis, Danone), hotel biznesi (ACCOR), bankçılıq (Societe Generale), aviasiya və kosmik sənaye (Airbus, Thales) kimi mühüm sahələrdə fəaliyyət göstərən Fransa şirkətləri Azərbaycanda həyata keçirilən və dəyəri 6,2 milyard dollar olan layihələrdə podratçı qismində iştirak etmişdir". Fransız şirkətlərinin 1995-2019-cu illərdə Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollar sərmayə qoyduğunu (bunun 2 milyard dolları neft sektoruna, 194,1 milyon dolları qeyri-neft sənayesinə yönəldilib) xatırladan icraçı direktor Azərbaycanın Fransaya yatırdığı investisiyaların həcmini də açıqlayıb - 224,7 milyon dollar. "2004-2018-ci illərdə ölkəmizə aid 2,3 milyard dollarlıq sifarişləri yerinə yetirən fransız şirkətləri bundan sonra da Azərbaycanla iqtisadi əlaqələrdə maraqlıdırlar. Senatın qətnaməsi onları çətin vəziyyətə salır. Gərək bu şirkətlər də Fransa ictimaiyyətinə, parlamentarlara və hökumətə izah etsinlər ki, aşırı erməni havadarlığı Fransanın Cənubi Qafqazda maraqlarına sarsıdıcı zərbələr endirir", - deyə V.Qasımlı vurğulayıb.

O, daha sonra bildirib ki, Fransanın "Total" şirkəti Bakı-Tbilisi-Ceyhan layihəsində 5, Abşeron offshore ərazisində 50 faiz paya sahibdir: "Total" şirkəti Azərbaycanda neft-qaz layihələrində iştirak edir, Ermənistan isə bu layihələri hədəfə alır. Bəlkə "Total" Fransa parlamentinə və hökumətinə bunu izah etsin ki, Fransanın Azərbaycandakı çoxmilyardlı sərmayə qoyuluşları Ermənistan tərəfindən təhdid olunur?! Bu ilin iyulunda Ermənistan Tovuz bölgəsində təkcə Azərbaycana deyil, həm də "Total"ın payçı olduğu Bakı-Tbilisi-Ceyhan layihəsinə hücum etmişdi. Bu o deməkdir ki, Azərbaycan təkcə öz ərazi bütövlüyünü deyil, həm də Avropanın enerji və nəqliyyat təhlükəsizliyi üçün əhəmiyyətli olan infrastrukturu erməni faşizmindən qoruyur. Belə olan halda Fransa Avropanın enerji və nəqliyyat təhlükəsizliyində əhəmiyyətli rol alan Azərbaycanı niyə özündən narazı salır?"

V.Qasımlı sonda qeyd edib ki, Senatın qərarı hüquqi gücə və real təsir imkanına malik olmasa da, Fransanın milli maraqlarına ziddir: "Əgər Fransa regionda öz nüfuzunu tamamilə itirmək istəmirsə, Cənubi Qafqazın əsas geostrateji ölkəsi olan Azərbaycanla münasibətləri düzgün tənzimləməlidir".

***"Azərbaycan"***

# "Ağdam mənəvi qibləmdir"

## Natiq Cavadovun Ağdam nisgili, Əliağalı həsrəti və atasına olan borcu...



◆ Qarabağ söhbətləri

**... Yaya hələ bir ay qalsa da, mayın əvvəlindən isti nəfəsini təbiətə duyurmağa başlamışdı. Günəş qızmar şəfəqlərini xəsislik etmədən aləmə səpələyir, torpağı odlu bağrına basıb canında qalan son buzunu, şaxtasını da əridərək içini isidirdi. Artıq bütün ağaclar, çəmənlər yaşıl donunu geyinib, al-əlvan çiçəklərlə bəzənmişdi...**

**Bu vaxtlar onların da ucu-bucağı görünməyən, baxdıqca göz oxşayan bağlarının güllük-gülüstanlığa çevrilən çağıydı. Elə ki, may ayı gəlir, hava qızırdı, günlərinin çoxu burda keçirdi. Bağdakı ən böyük alma ağacının altına xalılar, palazlar sərilir, üzərinə döşəklər, mütəkkələr atılırdı. Burda oturub dərs edən kim, dincələn kim, deyib-gülüb oynayan kim, yemək yeyən kim... Bir sözlə, payız gəlib havaları soyudana kimi yaz-yay bu rəngbərəng, naxışlı dünyanın üzərində keçirdi...**





*O zamanlar həyatın özü də xalıların üzərindəki naxışlar kimiydi - rəngli, bəzəkli, nizamlı, könül oxşayan... Nə dərd, qayğı vardı, nə itkilər, nə də Vətən nisgili...*

*Hər şey tamdı, bütövdü... Sonradan isə...*

*Qəfil gözlərini açıb yuxudan diksinərək oyandı. Bir neçə dəqiqə real dünyayla xəyal aləmi arasında var-gəl etdi. Yuxumu görürdü, yoxsa yenə xatirələrinin oyununa düşmüşdü - ayırd edə bilmədi. Axı bu halı ilk dəfə yaşamırdı. 27 il ərzində neçə dəfə bu vəziyyətə düşmüşdü, heç özü də bilmirdi. Elə ki, gözlərini yumurdu, ruhu bədənindən çıxıb kəndlərinə - Əliağalıya doğru uçur, küçə-küçə, məhəllə-məhəllə, ev-ev hər yanı dolaşıb qayıdırdı. Kənddə, ata ocağında keçən uşaqlıq illəri, xatirələri səhərə qədər beynində kino lenti kimi təkrarlanırdı...*

*Bu gecə gördüyü yuxu da xoşbəxt, qayğısız uşaqlıq illərindən bir mənzərəydi. Ancaq daha əvvəlki kimi ağrı, acı, nisgil, həsrət, göz yaşı yoxdu bu yuxularda, xəyallarda...*

*Sevinc, xoşbəxtlik, həyəcan... və qayıdış vardı...*

*27 illik ayrılıqdan sonra vətənə, doğma yurda ruhən, xəyalən yox, gerçək, böyük qayıdış...*

### Evdə çox ciddi nizam-intizam vardı

*"Qarabağ söhbətləri"ndə bu dəfə Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin baş direktoru, texnika elmləri doktoru, professor, Beynəlxalq və Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvü, Kosmik Məsələlər üzrə Şuranın üzvü Natiq Cavadovla Ağdamın Əliağalı kəndində keçən uşaqlıq illərinə qayıtdıq, işğal nəticəsində çəkdikləri ağrıları yenidən yaşadıq, gələcək arzulara işıq tutduq.*

- Ağdam deyəndə gözümün önünə gələn ilk mənzərə doğulduğum ocaq, ata yurdumdur. Həmişə demişəm, Ağdam mənim mənəvi qibləmdir, atamın məzarı isə mənəvi Məkkəmdir. 27 ildir ən böyük arzum olaraq o müqəddəs yeri ziyarət etmək həsrətilə yaşayıram...



...Bu həyatda ən çox atamı - Hacı müəllimi istəmişəm. Bizim aramızda tək ata-oğul münasibəti yox idi, həm də dost kimi dərdləşirdik. Atamın qəbrini Ağdamda qoyub gələndən sonra elə bilirəm yarımam, tam deyiləm. Özümü çox pis hiss edirdim. Bu illər ərzində heç cür özümə gələ bilmirdim.

İndi torpağımız işğaldan azad olunub. Xoşbəxtlikdən bilmirəm nə edim... Fikirləşəndə ki, kəndə gedə biləcəyəm, həyəcandan ürəyim atlanır. Hərdən elə bilirəm yenə yuxudayam...

1955-ci il martın 8-də Ağdamın Kolanı elinin Əliağalı kəndində dünyaya gəlmişəm. Kolanı camaatı müsbət xüsusiyyətləri, qoçaqlığı ilə seçilən şərəfli tayfalardan biri olub. Sovetlikdə 7-8 kənd vardı. Kəndlərin adı ayrı olsa da, hamısı Kolanı eli sayılırdı. Məsələn, 5 kilometr uzaqda bir kənddə yas düşsəydi, bizim kənddə 1 il toy olmurdu. Kənd camaatı özü yığışıb yası yola verirdi. Heç ölü yiyəsi bilmirdi nə hardadı. Toyu da eləcə elliklə əl-ələ verib keçirir, 3 gün yeyib-içirdilər. İnsanlar bir-birinə çox böyük hörmət-izzətlə, sevgi ilə yanaşırdılar.

Kəndimiz çox mənzərəli, gözəl, cənnətməkan idi. Hər iki tərəfi meşəlik idi, ortadan Xaçın çayı axırdı. Kənddə 450-500 ev vardı. Atam rus dili müəllimi idi. Böyük Vətən müharibəsində tankçı kimi iştirak etmiş, çoxlu sayda ordenlə, medallarla qayıtmışdı. Bu gün Ağdamda Alıbəyli qaçqın şəhərciyində atamın - Hacı Cavadovun adına küçə var. Rayonda olduqca sayılıb-seçilən kişilərdən biri, el ağsaqqalı, çox namuslu, qeyrətli, şəxsiyyətli, ciddi kişi idi. Elimizin, obamızın təəssübünü heç kəsə vermirdi. Kənddə kimin nə dərdi olardısa, köməyə atamın yanına gəlirdi. Onun getdiyi qapıda sorğu-sual olmazdı. Biz atamıza "papa" deyərdik. Məhləmizdə də bütün uşaqlar bizə



baxıb atama "papa" deyərdilər. Hamı ona hörmət edirdi. Yadımdadı, kəndin bizə tərəf dönən yerində camaatın oturacaq yeri vardı. Yaşlı kişilər orda yığışıb söhbət edirdilər. Atam məktəbdən evə qayıdanda onu görən kimi ayağa qalxıb böyük ehtiramla salam verirdilər.

Darvazadan içəri girəndə bircə dəfə boğazını arıtlamağı kifayət idi. Dərhal əl-ayağa düşərdik. Birimiz paltosunu, birimiz şlyapasını götürür, birimiz dəsmal gətirirdik. Əl-üzünü yuyub otururdu süfrə başına... "Bismillah" deyəndən sonra hamımız yemək yeyirdik. Evdə o cür ciddi nizam-intizam vardı...

### Atam mənə rus dilindən "2" yazdı

- Ailədə 2 bacı, 4 qardaş idik. İki bacıdan sonra ilk oğul payı idim deyə mənə qarşı xüsusi diqqət vardı, məni daha çox əzizləyirdilər. Hardasa 4 yaşımda bütün hərfləri, rəqəmləri bilirdim, yaxşı şeirlər əzbərləyirdim. Bütün günü əlimdə tabaşir hər yeri yazırdım. Evdə təmiz divar, döşəmə, xalça, palaz qalmırdı...

Bir dəfə atam evdə şagirdlərinin dəftərlərini yoxlayırdı. Dedi, yerdə bir kağız var, onu aç, oxu, gör nədi elə. Kağızı açdım, gördüm bir şeirdi. Guya bu şeiri mənə palaz yazmışdı.

*Natiq, ey Natiq, söylədi palaz,*
*Sənə kim dedi başla məni yaz*
*Ayıb deyilmi məni yazırsan,*
*Hamı da deyir, yaxşı oğlansan*
*Qalxaram inan, tutaram səni*
*Əl-qolun bağlayıb ataram səni.*

Həyətin ayağında qonşunun iti vardı, qorxurdum ondan. Mən də düşündüm ki, palaz aparıb məni itin qabağına atar. O şeirdən sonra daha evdə heç yeri yazmadım...

Atam hər axşam bizdən dərslərimizi soruşurdu. Bacımgil hündürdən oxuyanda qulaq asırdım. Onlar dərs danışanda yadlarından çıxan hissəni mən o saat deyirdim. Sonra hər ikisi mənimlə dalaşırdı ki, niyə bizi çaşdırırsan.

Atam özü də bizə dərs deyirdi. Olduqca ciddi pedaqoq idi. 3-cü gün məktəbimizdə rus dili günü sayılırdı. Sinifdə hamı rus dilində danışmalıydı. Bir dəfə evə qonaq gəlmişdi. Mən də kömək elədim deyə bütün dərslərimə hazırlaşmışdım, ancaq rus dili dərsinə vaxtım qalmamışdı. Atama bunu söylədim, dedi eybi yox. Səhərisi sinifdə atam hamıdan birinci elə məni lövhəyə çıxardı ki, Natiq, gəl dərsi danış. Durdum gəldim lövhəyə. Amma dərsi öyrənmədiyim üçün "2" aldım...

### O xalçaların üstü bizim üçün ayrı aləm idi

- Təbii ki, bu, bizim üçün qəbuledilməz idi. Xüsusilə o vaxtlar müəllim ailəsi çox seçilirdi. Biz geyimimiz, davranışımız, təhsilimiz ilə hər mənada nümunəvi olmalıydıq. Evimiz daim qonaqlı-qaralı idi. Elə bir gün olmazdı qonağımız olmasın. Bakıdan hörmətli insanlar kəndə gələndə bizim evdə qonaq qalardılar.

Qonaq olmayanda da atam yolda kimi görsəydi, deyərdi, gedək çörək yeyək. Çörəyi heç vaxt tək yeməzdik. Elə olurdu müəllim yoldaşları ilə günorta evə gəlirdi. Biz vaxt tapıb otaqdan çıxa bilmirdik. Hətta olub ki, qardaşlarımla çarpayının altına girmişik, onlar yeməyini yeyib gedəndən sonra çıxmışıq. Müəllim ailəsi olduğumuz üçün hərəkətlərimizdə məhdudiyyətlər tətbiq edilirdi. Amma çayda da çimirdik, futbol da oynayırdıq. Mal-heyvan dalınca da gedirdik. Kəndimizin qarşısındakı meşədə Çinarlı bulağı var idi. May bayramını uşaqlarla orda keçirirdik. Həyətimiz armudla dolu olsa da, sovxozun bağına armud oğurluğuna gedirdik. Böyük həyətimiz vardı, hər cür meyvə ağacı ilə doluydu.

Həyətimiz, bağımız çox gözəl idi. May ayı başlayanda, havalar qızan kimi anam alma ağacının altına 3-4 böyük xalça sərirdi, üstünə mütəkkə, döşəkçələr düzürdü. Bütün günümüz orda keçirdi. O xalçaların üstü bizim üçün ayrı aləm idi, tamam başqa, rəngli, al-əlvan bir dünyaydı. Orda oynayırdıq, əylənirdik, orda yeyirdik, dərs edirdik, orda dincəlirdik. Çox xoşbəxt, sevincli günlər idi...

### O dağlar, o bulaqlar üçün burnumun ucu göynəyir

- 8-ci sinfə qədər kənd orta məktəbində oxumuşam. Əlaçı idim, bütün fənlərdən "əla" alırdım. Daha yaxşı təhsil alım deyə əvvəl istədilər Ağdam şəhərində məktəbə davam edim. Amma o vaxt Bakıda 132 və 190 nömrəli məktəblər çox tanınırdı. Böyük bacım da ailə qurub Bakıda yaşayırdı deyə 132 nömrəli məktəbi seçdik. 9-10-cu sinifləri orda bitirdim.

Bakıda oxuyanda yay tətilində kəndə gələndə atam bizi 3 ay Kəlbəcər, Laçın dağlarına aparırdı. Mənim hələ 5-6 yaşım olanda atam rayon partiya komitəsinin xəttilə Kəlbəcərə təbliğat-təşviqat işləri üçün göndərilmişdi. Məni də özüylə aparmışdı, dostugildə qalırdım. Oranın havası o qədər təmiz idi ki... Üstəlik, təbii qidalarla qidalanırdım deyə kəndə qayıdanda sifətimdən qan damırdı, yanaqlarım qıpqırmızı olurdu. Atam o yerləri çox sevirdi. Hər il yay tətilində mütləq ora gedirdik. Hərdən öz-özümə gileylənirdim buna görə, amma atama demirdim.



Biz atamla dost idik, elmdən, ədəbiyyatdan, şeirdən danışırdıq. Amma öz içimdən keçən hissləri, fikirləri ona deməyə utanırdım, çəkinirdim. Aramızda bir pərdə vardı... Hətta özü cibimə pul qoymazdı. Verərdi anama, anam da mənə verərdi... Kəlbəcərə getmək məqamı gələndə anama deyirdim, axı mən iki gündü Bakıdan kəndə gəlmişəm. Qoyardı heç olmasa burda uşaqlarla bir az oynayardım. Amma indi deyirəm nə gözəl günlər imiş. Nə yaxşı bizi oralara aparırmış. Bəlkə də hiss edirmiş ki, biz nə vaxtsa o dağların, o bulaqların həsrətində olacağıq.

İndi o dağlar, o bulaqlar üçün ürəyim gedir, burnumun ucu göynəyir...

### Çalışmışam o kişiyə layiq övlad olum

- Məktəbi əla qiymətlərlə bitirdiyim üçün istənilən fakültəni seçə bilərdim. Əvvəl Tibb İnstitutuna daxil olmaq istədim. Amma sənədlərimi Bakı Dövlət Universitetinin fizika fakültəsinə vermək qərarına gəldim və daxil də oldum. Zamanla doğru seçim etdiyimi gördüm. Nə yaxşı ki, Fizika fakültəsini seçdim və elm dalınca getdim. Məktəbə tez getdiyim üçün 16 yaşımda artıq tələbə idim. İnstitut illərində əvvəl yataqxanada, sonra kirayədə qaldım. Atam tez-tez yanıma gəlirdi, mənə baş çəkirdi.

Məktəbdə olduğu kimi, tələbə ikən də çalışmışam özümü atama layiq aparım. Bakıda təhsil aldığım müddətdə həmişə elə bilmişəm atam başımın üstündə dayanıb. Əsgərlikdə belə onun zəhmini unutmurdum. Həmişə çalışmışam özümü elə layiqli aparım ki, zəhmli baxışla mənə baxmasın. Bu gün bu yaşda böyük agentliyin rəhbəri olsam da, yenə atamın zəhmi mənimlədir. Öz-özümə deyirəm, birdən elə hərəkət edərəm atamın xoşuna gəlməz. Çalışmışam o cür kişiyə layiq övlad olum...

Atam uşaq psixologiyasını yaxşı bilirdi. Qızım Aytən Babaxanova tibb üzrə fəlsəfə doktorudur, ali dərəcəli endokrinoloqdur. Oğlum Anar isə iqtisad üzrə fəlsəfə doktorudur. Aytəni 2 yaş yarımlığında atamgil may ayında kəndə aparmışdılar. Mən də iyunda gəldim. Aytən günorta yatdığından qardaşım oyadıb gətirdi, mənim üstümə gələndə qucağıma almadım. Çünki atam və anamın yanında uşaqları əzizləməzdim. Bu bizdə bir adət idi. Atam qızıma bir şeir qoşmuşdu.



*Aranlıyam, dağlıyam,*
*Buz bulaqlı, yaylaqlıyam.*
*Beçə ballı, qaymaqlıyam.*
*Soruşsanız haralıyam*
*Adım Aytən, ağdamlıyam.*
*Dağlarda bitən çiçəyəm*
*Qönçələnən ləçəyəm*
*Bütün qızlardan göyçəyəm*
*Soruşsanız haralıyam*
*Adım Aytən, ağdamlıyam.*

"Bütün qızlardan göyçəyəm" deyəndə Aytən əlini sinəsinə vurub özünü göstərirdi...

Vətənlə bağlı da gözəl şeirlər yazmışdı. Heyif ki, atamın şeirlər dəftəri qalmayıb. Dəftərləri də, kitabları da, fotoları da kənddəki evimizdə qaldı, məhv olub getdi. Kəndimizə ilk dəfə su çəkdirən də atam olub. O vaxt Ağdamdan seçilən deputatın qəbuluna getmişdi. Su boruları aldırmışdı. Kəndin baş hissəsinə artıq kran da qoyulmuşdu. Sonra Qarabağ hadisələri başladı.

Atam çox əsəbləşirdi, heç cür özünə gələ bilmirdi. 1989-cu ildə infarkt keçirdi, sonra insult oldu. 1991-ci ildə rəhmətə getdi.

Bazar günü idi. Kəndə ailəmizə baş çəkməyə gəlmişdim. Atam gecəni qalmağa qoymadı. Dedi işdən qalma. Günorta saat 2-də Bakıya qayıtdım. Səhərisi tezdən xəbər verdilər ki, atan rəhmətə gedib. Gəlib çatanda gördüm məktəbdə vida mərasimi keçirilir. Atamı elə kənddə dəfn etdik...

### Nə biləydik ki, bu gediş son gediş olacaq

- Amma atamın ilk "qara bayramı"nı etmək bizə qismət olmadı. O gün kəndimiz ermənilər tərəfindən işğal olundu... 1992-ci il martın 14-ü... Atamın ilk qara bayramı... Kəndimin, ailəmin qara günü... Ermənilər qəflətən hücum etdilər, kəndi tərk etməli olduq. Ehsan qazanlarını həyətdə elə qazın üstündə qoyub çıxdıq...

Evdən heç nə, bir çöp də çıxara bilmədik. Elə əynimizdəki paltarla canımızı götürüb getdik. Nə biləydik ki, bu gediş son gediş olacaq, kəndə bir daha qayıtmayacağıq?! Bərdədə atamın bacısı qalırdı. Əvvəl ora getdik. Bir qardaşım Rafiqin uşaqları elə Bərdədə məskunlaşdı. Sonra anamgili Bakıya gətirdim ki, diqqətim, gözüm üstlərində olsun. Bacılarım da burda yaşayırdı.



Anamı 87 yaşına qədər yaşatdım, qoymadım yanından yel ötsün. Daim həkim nəzarətində saxladım, qorudum. Əlimdən gələn hər şeyi elədim ki, ömrü uzansın. Anam çox danışan adam deyildi. Bizə deyirdi, neynək bala, qismətimiz buymuş, nə biləydim nə vaxtsa gəlib Bakıda yaşayaram...

Hər zaman fikirliydi. Bütün ağrılarını, acılarını içində çəkirdi. Kəndimizin, evimizin həsrətilə yaşayırdı. İllərlə qurub-yaratdığın, ömrünün çoxunu keçirdiyin doğma yurdu, ocağı qoyub gəlmək çox böyük dərddi. Bircə yadigar əşya çıxarmamışdıq ki, ona baxıb təsəlli tapsın...

Heç unutmuram, Şuşa işğal olunmuşdu, amma Ağdam yox. Müəssisəmizin rəhbəri kimi hər həftə Ağdama gedib-gəlirdim. Avtobusla gedəndə hər dəfə bir oğlanla rastlaşırdım. Bir dəfə tanış olduq. Dedi Şuşadanam, dözə bilmirəm, şənbə-bazar günləri gəlib bu dağlara tamaşa edib qayıdıram...

O vaxt bu dərdi hələ anlaya bilmirdim... Sonra bu dərdi biz də yaşadıq...

Mən də hərdən anamgili götürüb Bərdəyə, Ağdam sərhədinə tərəf gedirdim. Ordan kəndimizin havasını alırdıq. Dağlara baxırdıq. Bizim kəndimiz Şahbulaq dağının arxasında, Xaçınçayın üstündə idi. Xaçınçay Quzanlıdan da keçirdi. Əlimizi çayda yuyurduq, elə bilirdik elə kəndimizdəyik. Bununla təskinlik tapmaq istəyirdik, toxtamağa çalışırdıq...

### İlham Əliyevlə Mehriban xanımın Ağdam məscidini ziyarətləri məni ağlatdı

- El-oba çox şirindir, əvəzsizdir... Həqiqətən də, torpaqdan, vətəndən doğma heç nə yox imiş. Atadan da, anadan da, baladan da, nəvədən də şirin vətəndir...

Torpağın bu qədər doğmalığını bilməzdim. 1991-ci ildə Qarakənddə vertolyot qəzası olanda orda müəssisədə baş direktor idim. Tofiq İsmayılov məni ora müvəqqəti göndərmişdi. Tofiq müəllimgil 400 avtomat gətirmişdi. Mənə dedi camaata paylayın. Vertolyotu stadionda düşürtdük, avtomatları payladıq. Onlar vertolyota mindi, amma mən qaldım...

Qəzanın baş verdiyini biləndə elə bil dünya başıma uçdu, çox ağrıdım, peşman oldum ki, gərək mən də minəydim, onlarla birlikdə şəhid olardım... İnanın, bəzən şəhidlərimizə qibtə edirəm. Yaxşı mənada qısqanıram ki, onlar əbədi tarixə düşdülər. Şəhidlik ən yüksək zirvədir. Biz bugünkü tarixi qələbəmizi şəhidlərimizin qanı, ordumuzun rəşadəti, qəhrəmanlığı, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik qabiliyyəti sayəsində qazandıq. Xalq, millət kimi bütövləşdik, birləşdik. Həm 44 günlük Vətən savaşımız misli görünməyən müharibə kimi, həm də Azərbaycan xalqı qəhrəman xalq kimi tarixə düşdü.

Cəbrayılın işğaldan azad olunduğunu eşidəndə az qaldı sevincdən ürəyim gedə. Təzyiqim birdən-birə 220-ə qalxdı. Gördüm boğuluram, yoldaşım tez dərman gətirdi, birtəhər sakitləşdim.

Füzulinin azadlığını eşidəndə hönkürtü məni tutdu...

Zəngilanın işğaldan qurtulduğu elan ediləndə işdəydim. Yanımda qonaq vardı. Bir işçi gəlib şad xəbəri verdi, özümdən asılı olmadan otaqda hönkür-hönkür ağladım...

Qubadlının, Şuşanın xəbərini eşidəndə də evdəydim, yenə çox ağladım...

Qəribədir ki, Ağdamın azad olunduğunu eşidəndə ağlamadım, elə bildim gözümün yaş quruyub... Yəqin hazırlıqlı idim ona görə. Amma Prezidentimiz İlham Əliyevlə Mehriban xanımın Ağdam məscidinə daxil olma səhnəsi məni ağlatdı...

Ölkənin birinci şəxsləri döşəməsi olmayan məscidə, quru yerə ayaqyalın girdilər, divarı öpdülər. Mehriban xanım başını divara qoyub qucaqladı. Bu, müqəddəs məkana yox, bütün Qarabağa olan münasibətdi. Bu, sözlə ifadə olunmaz hissdi...

Kəlbəcərin, Laçının işğaldan azad olunduğunu eşidəndə isə sevincimin hədd-hüdudu olmadı. Bir anlıq uşaqlıq illərimə qayıtdım... Atalı, analı günlərimi xatırladım...

O dağlara xəyalən yenidən qalxdım. O bulaqlarla qucaqlaşıb öpüşdüm. Uşaq vaxtı dizimizi yerə qoyub buz bulaqların suyundan içdikcə içirdik.

O küskün bulaqlar bu dodaqları yenidən qəbul edəcəkmi görəsən?!

### İllərdi içimdə o qorxuyla yaşayıram...

- 27 illik işğal müddətində kəndimizi ara-sıra yuxuda görürdüm. Evimizi, həyətimizi, uşaq vaxtı oynadığımız yerləri gəzirdim. Hərdən ayılırdım, elə bilirdim doğrudan da kəndə gedib qayıtmışam.

Amma son vaxtlar Ağdam demək olar ki, hər gecə yuxuma girir. Lap əvvəllər Ağdamda işlədiyim vaxt şəhərdə qaldığım evi görürdüm - hansı küçədən keçirdim, hardan dönüb gəlirdim - hər şeyi... Zamanla o yaddaşım yox olurdu. Xatirələrimdə yolu-izi itirirdim.

İndi isə yaddaşım öz-özünə geri qayıtmağa başlayıb. Uzanıram, gözlərimi yumuram, bütün kənd ev-ev gözümün qarşısına gəlir. Cığır-cığır xatırlayıram. Gəzirəm kəndi... Bəzən özüm də çaşıram ki, yuxuda görürəm bunları, yoxsa xəyallarım, xatirələrimdir...

Qəribədir ki, atam rəhmətə gedəndən bəri heç vaxt onu yuxuda görməmişdim. Ancaq Qarabağ işğaldan azad olunan ərəfədə atam iki dəfə yuxuma gəldi. Görünür, Ağdamın xilas olacağı ona da əyan olub. Ruhu şaddır, əlbəttə ki...



Atam müharibədə olanda atası rəhmətə getmişdi. O vaxt elə bir dövr idi ki, məzarın üstünə başdaşı qoyulmurdu. Eləcə taxta parçasının üstünə ad-soyadı yazılardı. Atam müharibədən qayıdandan sonra yan-yana olan 10-15 qəbri göstərib deyiblər ki, bunlardan biri atanındı. Həmişə deyirdi, elə şey olar adam öz atasının qəbrini tanımasın?!

Atasının qəbrinin dəqiq yerini heç vaxt tapmadı... Mən onun yaşadığı əzabı, acını duyurdum... İllərdi içimdə o qorxuyla yaşayıram ki, görəsən tarix təkrarlanırmı? Çox qorxuram kəndə qayıdanda atamın məzarını tapmayım... Yerini bilirəm, amma üstündə başdaşı qalmayıbsa, tapa bilmərəm. Çünki bütün qəbirlər yan-yanaydı. Daim orda yaşayan qardaşıma arxayın idim ki, o, yeri santimetrinə kimi dəqiq bilər. Amma o qardaşım da rəhmətə gedib. İndi içimdə həmin qorxu, həyəcan, nisgil var...

Həmin səhnəyə dözə bilmərəm...

### İlk getdiyim yer atamın məzarı olacaq

- Ağdamı ermənilər elə bir vəziyyətə salıb, yerləyeksan ediblər ki, baxanda adamın ürəyi parçalanır. Bir salamat tikili qoymayıblar qalsın. O vaxt bizim evin qarşısına "qrad" düşmüşdü, 2 metr dərinliyində, 10 metr radiusda çuxur açmışdı. Dağılmayan evləri də yandırıb, talan ediblər, daşı daş üstündə qoymayıblar. Döyüşdən sağ çıxan yeganə bina Ağdam məscididir. O məscid Ağdamın sağ qalan yeganə "qazisidir". Amma əsas odur torpağımız geri qayıtdı.



Çox sevinirəm ki, möhtərəm Prezidentin komandanlığı altında Azərbaycan Ordusunun Laçına girməsilə Qarabağda ərazi bütövlüyü tam təmin edildi. Artıq Qarabağ münaqişəsi yoxdur...

Şuşa Qarabağın tacı, Ağdam isə mərkəzidir. Özü də Ağdam torpağı çox bərəkətlidir. Camaatı da imkanlı idi. Bakıda villa son illər dəbə düşüb. Amma o vaxt bu villalar Ağdamda vardı. Ağdam tezliklə abadlaşdırılacaq, əvvəlkindən də gözəl şəhər qurulacaq. 5 ildən sonra hər şey daha da gözəl olacaq. Çox böyük xəyallarla yaşayırıq. Allah bizə möhlət versin. O günləri görmək qismətimiz olsun. 28 ildir ürəyimizdə gəzdirdiyimiz arzuları, xəyalları gerçəkləşdirə bilək.

Kəndimizə girən kimi birinci növbədə dizimi yerə qoyub torpağı öpəcəm. Quranı necə öpüb gözümüzün üstünə qoyuruqsa, torpağımızı da elə öpüb, gözümün üstünə qoyacam. İlk getdiyim yer də atamın məzarı olacaq. Ora mənim mənəvi Məkkəmdir. Ordan çox narahatam...

Sonra həyətimizə gedəcəm, evimizin qalıqlarına baxıb ağlayacam. Və əvvəlki yerində atama layiq ev tikdirəcəm. İmkanım daxilində qonşulara da ev tikdirəcəm. Yol çəkilməsinə kömək edəcəm.

Bizim müəssisənin Ağdamda böyük zavodu, Şuşada, Füzulidə filialları vardı. Onların hamısını bərpa edəcəyik. Nəyə imkanım çatsa, əlimdən gələni etməyə çalışacam. Tək mən yox, hamımız əl-ələ verib el-obamızı yenidən abadlaşdırmalıyıq. Ağdamı əvvəlki kimi cənnətməkana çevirməliyik. Həyətimizi, bağımızı da yenidən bərpa edəcəm. Çoxlu ağaclar, çiçəklər əkəcəm.

İndi iki qardaş, bir bacı qalmışıq. Qohum-əqrəbalarımı da kəndə köçürəcəm. Elə edəcəm ki, uşaqlar, nəvələr ora üçün darıxsın, can atsın. Məktəb qurtaran kimi də nəvələrimi, ailəmi yığıb köçəcəm Ağdama...



*May ayında Günəşin isti nəfəsi torpağı qızdırmağa başlayanda ucu-bucağı görünməyən, baxdıqca göz oxşayan bağlarında əvvəlki alma ağacının yerində əkilən yeni ağacın altına yenə xalılar səriləcək, üzərinə döşəklər, mütəkkələr atılacaq. Uşaqlar, nəvə-nəticələr burda oturub dərs hazırlayacaq, dincələcək, deyib-gülüb oynayacaq... Payız gəlib havaları soyudana kimi yaz-yay bu rəngbərəng, naxışlı dünyanın üzərində keçəcək...*

*Onda həyat da xalıların üzərindəki naxışlar kimi olacaq - rəngli, bəzəkli, nizamlı, könül oxşayan... Nə dərd, qayğı qalacaq, nə də vətən nisgili...*

*Natiq Cavadov da kürəyini mütəkkəyə söykəyib gözlərini yumacaq. Uşaq vaxtı bu bağda, elə bu yerdə bacı-qardaşları ilə oynadıqları oyunları, o xoşbəxt, qayğısız günləri xatırlayacaq...*

*Qəfil gözlərini açıb yenidən ətrafına boylanacaq, gördüyü mənzərənin yuxu, yoxsa xatirə olduğunu yoxlayacaq...*

*Və əmin olacaq - yox, artıq yuxu görmür...*
*Bu xoşbəxtlik nə yuxudur, nə xatirə, nə xəyal...*
*Gerçəkliyin tam özüdür...*

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***

# Azərbaycan tibb elmi və tibb təhsilinin əzəmətli intellekt məbədi

**Bu il ATU-nun tarixi məqam nöqteyi-nəzərindən rəsmi olaraq yaradılmasının 90 illik yubileyidir. Prezident İlham Əliyev cari ilin may ayının 14-də "Azərbaycan Tibb Universitetinin 90 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

> "Azərbaycan Tibb Universitetinin böyük tarixi vardır. Tibb Universiteti Azərbaycan Respublikası, xalqı qarşısında böyük xidmətlər göstərmişdir".
>
> **Heydər ƏLİYEV**

Hər birimizi yeni əmək rəşadətlərinə ruhlandıran sərəncamda deyilir: *"Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazasında yaradılmış Azərbaycan Tibb Universiteti ölkəmizin zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Azərbaycan səhiyyəsinin inkişafı tarixində xüsusi mövqeyə malik universitet öz fəaliyyətində təhsili, elmi və tibbi daim üzvi şəkildə birləşdirmiş, ötən illər ərzində təbabətin ən müxtəlif sahələri üçün yüksək bilikli və bacarıqlı kadrların yetişməsində, həmçinin mötəbər elmi mərkəz kimi fundamental tədqiqatların aparılmasında əhəmiyyətli rol oynamışdır. Tibb Universitetində beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və tibb təhsilinin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən işlər təqdirəlayiqdir".*

Azərbaycan Tibb Universiteti yarandığı gündən indiyə qədər çox çətin, lakin şərəfli, məhsuldar və işıqlı bir yol keçib. ATU 1930-cu il mayın 9-da Azərbaycan Dövlət Tibb İnstitutu adı altında, indiki BDU-nun Tibb fakültəsinin bazası əsasında yaradılıb. Həmin ilin iyun ayının 19-da isə ATİ-yə ilk tələbə qəbulunun aparılması üçün qərar qəbul edilib. Əsasən təşkilati məsələlərin icrasının təmini ilə məşğul olan və qısa müddətdə fəaliyyət göstərən ilk rektorlardan Möhsün Qədirli həm də Azərbaycan SSR XSK, Nadir Məmmədli isə ATİ-nin müalicə-profilaktika fakültəsinin dekanı, eləcə də rektorun tədris işləri üzrə müavini (prorektor) vəzifələrində çalışıb.

İlk rektorlar ATİ-nin formalaşması üçün nə mümkün idisə onu edə biliblər. 1932-ci ildə bu vəzifəyə təyin edilən görkəmli dövlət və elm xadimi professor Əziz Əliyev daha qlobal məsələlərlə məşğul olub. Belə ki, o, təcili olaraq ATİ-nin nəzdində tibb nəşriyyatı və Azərbaycanda ilk dəfə tibbi kitabxana fondu yaradıb. Professor Ə.M.Əliyev BDU-nun və digər ölkələrin universitetlərinin Tibb fakültələrini bitirmiş müəyyən qrup milli kadrları ana dilində dərsliklər və dərs vəsaitləri yazmağa səfərbər edib. Bir qrup müəllimlərə isə rus dilində olan bəzi dərslikləri milli dilə çevirmək tapşırığı verilib. Tədrislə paralel tibb elminin də inkişafı ATİ-də diqqət mərkəzində olub. Əgər 1930-cu ilə qədərki 11 il ərzində, ümumiyyətlə, ölkədə cəmi 7 nəfər azərbaycanlı doktorluq dissertasiyası müdafiə etmişdisə, 1930-1940-cı illərdə təkcə ATİ-də 104 nəfər dissertasiya işi müdafiə edənlərdən 65 nəfərini milli kadrlar təşkil edirdi. 1930-cu ilə qədər Tibb fakültəsinin 24 nəfər professoru arasında yalnız 1 nəfər (Mirəsədulla Mirqasımov) azərbaycanlı olduğu halda 1940-cı ildə ATİ-də çalışan 40 nəfər professordan 20 nəfərini milli kadrlar təşkil edib. Bu həm də xalqımızın fitri istedadının, milli qürurunun, milli şüur potensialı yüksəkliyinin bariz nümunələrindəndir. Belə vətənpərvər Azərbaycan alimləri sırasında Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Cahangir Abdullayev, Cəlil Hüseynov, Kamil Balakişiyev, Ümnisə Musabəyli, Məmmədəmin Əfəndiyev, Fuad Əfəndiyev, Rüstəm Əliyev, İbrahim İsmayılzadə, Mirmehdi Mirsəlimov, Əlibəy Əlibəyov, Hüseyn Əliyev, Əbdüləhəd Həsənov və başqaları kimi milli dildə ilk dərslik və dərs vəsaitləri yazan görkəmli kadrlar olub. 1939-1945-ci illərdəki II Dünya müharibəsi dövründə ATİ-də ildə iki dəfə buraxılış keçirilib. Bu çətin anlarda alman faşizminə qarşı müharibədə Azərbaycan həkimləri də qələbəyə öz dəyərli töhfələrini veriblər. Onların həm ön cəbhədə, həm də Bakıdakı təxliyə hospitallarında yaralılara göstərdikləri yüksəkixtisaslı tibbi yardım, həmçinin Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Fuad Əfəndiyev, Həmid bəy Mahmudbəyov, Hüseyn Əliyev, Aslan Tahirov, Zülfüqar Məmmədov və başqaları kimi dünya şöhrətli alimlərin ixtiralarının cərrahi praktikaya tətbiqinin parlaq nəticələri bunun bariz nümunələrindəndir.

1945-ci ildə yaradılan Azərbaycan SSR Elmlər Akademiyasının ilk 15 nəfər üzvündən üç nəfərinin (M.M.Mirqasımov, M.A.Topçubaşov, İ.İ.Şirokoqorov) ATİ-ni təmsil etməsi, onlardan da bir nəfərin (M.M.Mirqasımov) EA-nın ilk prezidenti seçilməsi, bir nəfərin (M.A.Topçubaşov) isə uzun illər akademiyanın vitse-prezidenti vəzifəsində çalışması qürurverici hallardandır.

1957-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna görkəmli dövlət xadimi, məşhur həkim və yazıçı Nəriman Nərimanovun adı verilib.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra, hər sahədə olduğu kimi, Azərbaycan Dövlət Tibb İnstitutunun da həyatında yüksəlişə doğru böyük dönüş yaranıb. Onun qayğısı sayəsində digər ali məktəblərlə birlikdə, ATİ-nin də gənc kadrları keçmiş SSRİ-nin müxtəlif ali tibb təhsili müəssisələrində məqsədli aspirantura və doktoranturaya göndərilir, tibb kadrları hazırlığının həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri yaxşılaşdırılırdı. Bununla paralel olaraq Ulu Öndər tərəfindən ATİ-nin maddi-texniki bazasının genişləndirilməsi və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi. 1980-ci ildə Ümummilli Liderin iştirakı ilə ATİ-nin yaradılmasının 50 illik yubileyinin keçirilməsi bu ali məktəbin həyatında böyük tarixi hadisəyə çevrilib. Məhz həmin ildə Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində ATİ-nin fədakar professor-müəllim heyətindən böyük bir qrup fəxri adlara, orden və medallara, mükafatlara layiq görülüb.

1991-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna universitet statusu verilib.

Ümummilli Lider həm dövlət müstəqilliyinin bərpasından əvvəlki, həm də müstəqillik dövründə daha üç dəfə Azərbaycan Tibb Universitetində olub. Onun 1976-cı ilin avqust ayında ATİ-nin rektoru professor Zəhra Quliyeva ilə birlikdə qəbul imtahanı auditoriyalarında abituriyentlərlə yaxından ünsiyyətdə olması, onlarla səmimi söhbətlər aparması böyük şəxsiyyətin təhsilə göstərdiyi yüksək qayğısının nümunə rəmzinə çevrilib. Ulu Öndər 1998-ci il sentyabrın 28-də bu ali tibb təhsili ocağının 5 nömrəli tədris binasının, 2000-ci ildə isə yeni unikal akt zalının açılışlarında və ATU-nun yaradılmasının 70 illik yubileyində iştirak edərək, Azərbaycan Tibb Universitetinə olan böyük qayğısını bir daha nümayiş etdirib. 2000-ci ildə məhz Heydər Əliyevin diqqət və qayğısı sayəsində ATU-nun ölkə üçün strateji əhəmiyyətə malik Hərbi-tibb fakültəsi, 2002-ci ildə bu ali tibb təhsili ocağının ilk klinikası - Tədris Stomatoloji Klinikası yaradılıb.

2003-2020-ci illər ATU-nun yeni müstəvidə yüksəliş illərinə çevrilib. Dahi Heydər Əliyev ideyalarının sədaqətli davamçısı Prezident İlham Əliyev ATU-ya olan dövlət qayğısının davamı kimi daha üç unikal klinikanın yaradılmasını təmin edib. Bu illər ərzində cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva üç dəfə bu qocaman ali tibb təhsili məktəbinin tələbə-gəncləri, professor-müəllim heyəti ilə görüşlərdə - ATU kollektivinə ərməğan etdikləri klinikaların təməlqoyma mərasimində və onların açılışlarında iştirak edərək dəyərli tövsiyələr verib, perspektiv planlardan danışıblar. Bu möhtəşəm klinikalar hazırda həm də Azərbaycan xalqına ləyaqətlə xidmət edən müalicə-profilaktika, müayinə-diaqnostika, reabilitasiya mərkəzlərinə çevrilib. Prezident İlham Əliyevin öz çıxışlarında da xüsusi olaraq vurğuladığı kimi, COVID-19 pandemiyası dövründə ATU-nun nəzdində olan və onun özünün qayğısı sayəsində tikilib istifadəyə verilən bu klinikalar ağır xəstələrin müalicəsində ölkəmiz, xalqımız üçün çox böyük sosial-strateji əhəmiyyətə malik olmasını sübuta yetirib. Cənab Prezident hələ 2010-cu ildə ATU-nun Tədris Terapevtik Klinikasının açılışında çıxış edərkən böyük uzaqgörənliklə deyib: *"Bu gün bu korpusla tanış olarkən bir daha gördüm ki, bizim tərəfimizdən qəbul edilən qərar çox düzgün qərar idi, vaxtında atılmış qərar idi. Burada həm müalicə, həm diaqnostika, eyni zamanda tədris prosesinin yüksək səviyyədə təşkili üçün ən qabaqcıl texnologiyalar, avadanlıq və bütün müasir imkanlar vardır".* Cənab Prezidentin hələ 10 il bundan əvvəl söylədiyi bu müdrik kəlamlar COVID-19 pandemiyasının dünyanı ağuşuna aldığı bugünümüzdə də eyni güclə, eyni nida ilə səslənir.

Fəxrlə deyə bilərik ki, müasir dövrdə də Azərbaycan Tibb Universiteti möhtəşəm tarixə malik əzəmətli ali tibb müəssisəsi kimi tibb elmi, tibb təhsili sistemlərinin, müalicə-profilaktika işlərinin yerinə yetirilməsinin yenilməz bayraqdarıdır. Hər sahədə olduğu kimi, bu möhtəşəm tibb təhsili ocağının da zəngin tarixini bilmək və yaşatmaq, onu gələcək nəsillərə olduğu kimi çatdırmaq görüləcək xeyirxah işlərin tərkib hissəsini təşkil edir. ATU son onillikdə müasir layihələr üzrə aparılan yeni islahatlarla əsaslı surətdə dinamik inkişaf mərhələsinə qədəm qoyub. Təhsil, elm və müalicə-profilaktika sahələrində əldə olunan müvəffəqiyyətlər birbaşa beynəlxalq əlaqələrin intensivliyinin, innovativ texnologiyaların geniş tətbiqinin, dünya standartlarına cavab verən yeni dövrə aid yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasının nəticəsi kimi qəbul edilir. Bu baxımdan ATU-da aparılan əsaslı dəyişikliklər təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına möhkəm zəmin yaradıb.

Son illərdə islahatlar yolu ilə elektron jurnalın tətbiqinə keçid, kafedralarda tələbələrin yekun və aralıq qiymətləndirilməsinin ATU-nun İmtahan mərkəzində aparılması, test suallarının yeni qaydalar üzrə tərtibi, dərsliklərin, plan və proqramların müasir tələblər səviyyəsinə uyğunlaşdırılması, beynəlxalq standartlara müvafiq olaraq bəzi kafedraların və ixtisasların ləğvi, identik kafedra və kursların birləşdirilməsi və s. kimi məqsədyönlü tədbirlər həm müəllimlər, həm də tələbələr tərəfindən rəğbətlə qarşılanır. Bütün bunlar Prezident İlham Əliyevin ATU-nun klinikalarının açılışındakı çıxışlarında söylədiyi proqram xarakterli nitqlərinin motivləri rəhbər tutularaq yerinə yetirilir.

ATU hələ yenicə təşəkkül tapdığı ilk illərdə qısa müddətdə - 1938-ci ildə tədris və elm sahələrində əldə etdiyi nailiyyətlərə, sağlam düşüncəli kollektivin novatorluq entuziazmı ilə yerinə yetirdiyi işlərin nəticələrinə görə keçmiş SSRİ-nin I dərəcəli qabaqcıl ali təhsil məktəbləri sırasına daxil edilib, 1980-ci ildə Sovetlər İttifaqının "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülüb, 1996-cı ildə ilk dəfə Londonda nəşr olunan Dünya Ali Məktəbləri reyestrinə salınıb, 1998-1999-cu illərdə Avropa Ali Məktəblər Birliyinin və Beynəlxalq Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçilib. Son illərdə ATU-nun əməkdaşlarının dünyanın inkişaf etmiş ölkələrinin ali tibb təhsili müəssisələri ilə qarşılıqlı inteqrasiyaları və onların təhsil, elm, müayinə, müalicə-diaqnostika, tələbə-rezident mübadiləsi və s. sahələrdəki məhsuldar praktik nəticələri təsdiq edir ki, Azərbaycan Tibb Universitetinin beynəlxalq aləmdəki reytinqi hazırda ən yüksək göstəricilərə malikdir. 2018-ci ilin fevral ayında Azərbaycan Tibb Universiteti nəzdində "İnformasiya Sistemlərinin Təşkili və İdarəetmə Mərkəzi" yaradılıb, həmçinin 2019-cu ilin oktyabr ayında "Tədris metodik və innovasiya" şöbəsi bazası əsasında yenidən qurulan "Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsi" fəaliyyətə başlayıb. Bu mərkəzin və şöbənin fəaliyyəti sayəsində ATU-da bir çox sahələrdə işlərin tamamilə elektronlaşmasına, eləcə də innovativ islahatlar, inteqrativ layihələrin həyata keçirilməsi yolu ilə təhsilin keyfiyyətinin təmininə nail olunub.

Azərbaycan Tibb Universiteti hazırda inzibati binaya, 5 tədris korpusuna, 4 möhtəşəm tədris klinikasına, zəngin tibbi ədəbiyyata malik əsaslı kitabxanaya, 5 tələbə yataqxanasına, 400 və 200 yerlik 2 akt zalına, 6 fakültəyə, o cümlədən Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı sayəsində yaradılan və strateji əhəmiyyət kəsb edən Hərbi-tibb fakültəsinə, 61 kafedraya, Elmi-Tədqiqat Mərkəzinə, "Təbib" idman-sağlamlıq klubuna, örtülü üzgüçülük hovuzuna, İmtahan mərkəzinə, İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinə, Treninq mərkəzlərinə, Elektron mikroskopiyası laboratoriyasına, "Təbib" nəşriyyatı və "Təbib" qəzeti redaksiyasına, Nabranda yerləşən "Şəfa" istirahət-sağlamlıq düşərgəsinə, Problem Elmi-Tədqiqat və kliniki müayinə laboratoriyalarına, eləcə də beynəlxalq aləmdə də şöhrət qazanmış "Çinar" xalq rəqs ansamblına və digər mədəni-kütləvi strukturlara malikdir.



2020-ci ilin əvvəllərinə olan məlumata görə, ATU-da çalışan 1300 nəfər əməkdaşdan 1100 nəfəri professor-müəllim heyətinə aiddir ki, onlardan da 183 nəfəri elmlər doktoru, 143 nəfəri professor, 3 nəfəri AMEA-nın, 1 nəfəri Polşa Tibb EA-nın həqiqi üzvü, 1 nəfəri RF EA-nın üzvü, 4 nəfəri RF EA-nın akademiki, 7 nəfəri AMEA-nın müxbir üzvü, 26 nəfəri Əməkdar elm xadimi, 45 nəfəri Əməkdar həkim, 41 nəfəri Əməkdar müəllim, 1 nəfəri Əməkdar jurnalist, 823 nəfəri fəlsəfə doktoru, 369 nəfəri dosent, 660 nəfəri assistent, 149 nəfəri baş müəllim, 56 nəfəri müəllim, 4 nəfəri fəxri bədən tərbiyəsi və idman işçisi, 2 nəfəri Əməkdar bədən tərbiyəsi və idman xadimidir. ATU-da həmçinin 268 nəfər baş laborant fəaliyyət göstərir.

Son onillikdə ATU-ya 10558 nəfər tələbə qəbul olunub (7988 nəfər - yerli, 2570 nəfər - xarici), 9889 nəfər (8791 nəfər - yerli, 1098 nəfər - xarici) məzun diplomuna layiq görülüb; həmin dövrdə qəbul olunan hərbi-feldşerlərin sayı - 354 nəfər olub, 1300 nəfər rezident, 184 magistr yeni qaydalar əsasında diplomdan sonrakı təhsilini başa çatdıraraq yüksəkixtisaslı mütəxəssis diplomuna layiq görülüb. Hazırda ATU-da 8 mindən çox tələbə, rezident və magistr təhsil alır. Ümumiyyətlə, bu vaxta qədər ATU-da, Tibb fakültəsi də daxil olmaqla, 75 mindən çox həkim və əczaçı hazırlanıb.

Azərbaycan tibb təhsili sisteminin beynəlxalq təhsil sisteminə tam uyğunlaşdırılması prosesinin uğurlu göstəriciləri özünü büruzə verməkdədir. Bunun pozitiv nəticələrindən biri də ondan ibarətdir ki, ATU-da tibb təhsili almaq istəyən xarici tələbələrin sayı ildən-ilə artır. Belə ki, 2020-ci ilin əvvəllərinə olan məlumata görə, bu tədris ocağında 2404 əcnəbi tələbə təhsil alır, onlardan 563 nəfəri hazırlıq kursu müdavimləridir ki, bu da Tibb Universitetinin beynəlxalq reytinqinin yüksəkliyinin göstəricilərindəndir. Hazırda ATU-da dərslər Azərbaycan və rus dili ilə yanaşı, ingilis dilində də müvəffəqiyyətlə davam etdirilir.

Son onillikdə Tibb Universitetində 55 elmlər doktoru, 307 fəlsəfə doktorluğu dissertasiyaları müdafiə edilib, əməkdaşlar tərəfindən 120 monoqrafiya (110-u respublikada, 10-u xaricdə), 182 dərslik, 291 dərs vəsaiti, 289 metodik ədəbiyyat, 51 elmi əsərlər məcmuəsi, 14065 elmi iş çap olunub, 61 patent, 85 qrant alınıb.

2019-cu ildə ölkəmizin təhsil sisteminin bayraqdarı olan Bakı Dövlət Universitetinin 100 illik yubiley təntənələrini ATU kollektivi də böyük ruh yüksəkliyi ilə qeyd etdi. Bu yubiley həm də Azərbaycanda tibb elmi və tibb təhsili sistemlərinin 100 illik yubileyidir. 1919-cu il sentyabrın 1-də BDU-nun təşkilində fəal iştirak edən möhtəşəm həkimlər qrupu tərəfindən 100 il bundan əvvəl onun tərkibində həm də Tibb fakültəsi yaradılıb və bununla da Azərbaycanda tibb elmi və tibb təhsili sistemlərinin möhkəm əsası, bünövrəsi qoyulub. Təsadüfi deyildir ki, BDU-nun ilk rektoru da görkəmli cərrah-anatom, professor Vasili Razumovski olub. Tibb fakültəsi bütün maddi-texniki bazasını, mövcud kafedralarını, digər strukturlarını, eləcə də ən vacibi sayılan intellekt potensialını saxlamaqla Azərbaycan Dövlət Tibb İnstitutu, sonra isə Tibb Universiteti adı altında öz çoxillik səmərəli fəaliyyətini qürurla davam etdirir və 2019-cu ildə ölkəmizin tibb təhsili sisteminin yaranmasının 100 illik yubileyini fəxrlə qeyd etməyi bizə də haqq edib.

Ulu Öndər Heydər Əliyevin qoruyub saxladığı müstəqillik illərində də Azərbaycan Tibb Universitetinə, onun simasında Azərbaycan tibb elmi və tibb təhsilinə, müalicə, müayinə, diaqnostika və reabilitasiya işlərinə dövlət tərəfindən davamlı şəkildə göstərilən səmimi diqqət və qayğıya, möhkəm dayaq rolu oynayan ardıcıl köməyə görə möhtərəm Prezident İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Tibb Universitetinin bütün əməkdaşları, bütün tələbə-gəncləri adından, həmçinin öz adımdan dərin minnətdarlığımızı, səmimi təşəkkürlərimizi yetirirəm.

ATU-nun 90 illik yubiley tədbirlərinə hazırlığın yüksək səviyyədə həyata keçirilməsinin təşkilinə göstərdikləri mühüm və hərtərəfli köməklərinə, ölkəmizin bu qocaman ali tibb təhsili ocağının nüfuzunu daha da artırdıqlarına görə Azərbaycan Respublikası Səhiyyə və Təhsil nazirliklərinə səmimi-qəlbdən təşəkkür və minnətdarlıq etməyi özümə borc bilirəm.

Bu günlər Yer kürəsinin müxtəlif guşələrində yaşayan 50 milyondan çox Azərbaycan xalqı üçrəngli bayrağımıza sarılaraq Ali Baş Komandan, möhtərəm İlham Əliyevin bəxş etdiyi Zəfər Bayramının sevincini yaşayır.

Qürurlu və məğrur Sərkərdə - Ali Baş Komandan "Qarabağ Azərbaycandır!" deyərək rəşadətli Silahlı Qüvvələrimizlə birlikdə hamını ayağa qaldırdı, xalqımız haqq, ədalət diplomatiyasını sinəsinə qalxan edərək müqəddəs torpaqlarımızın - doğma Qarabağımızın erməni işğalından azad edilməsi uğrunda döyüş meydanına atıldı və qalib gəldi. Böyük Sərkərdəmiz dünyanın müxtəlif ölkələrinin 30-dan artıq jurnalistlərinə verdiyi möhtəşəm müsahibələri ilə Azərbaycana qarşı yönələn ideoloji müharibədə də qalib gəldi, dosta da, düşmənə də sübut etdi ki, Qarabağ əzəli və əbədi Azərbaycan torpağıdır.

Beynəlxalq aləmdə böyük nüfuza malik dövlətimizin rəhbərliyini - Qarabağın erməni işğalından azad edilməsi uğrunda Qəhrəmanlıq Tarixi yazan, bu yolda xarüqələr yaradan Ali Baş Komandanımızı, xalqımıza, Silahlı Qüvvələrimizə mənəvi dayağı, dəstəyi ilə seçilən və sevilən Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanı, Rəşadətli və Müzəffər Ordumuzu, qədirbilən, vətənsevər Azərbaycan xalqını, bütün səhiyyə və təhsil işçilərini, həkim və əczaçıları, Azərbaycan Tibb Universiteti kollektivini, tələbə, rezident, doktorant, dissertant, magistr və bakalavrları, ATU-nun dünyanın müxtəlif regionlarına səpələnmiş və həkimlik andına sədaqətlə əməl edən bütün məzunlarını hamımızın əzəmətli intellekt məbədi olan bu ali tibb təhsili ocağının yaranmasının 90 illik yubileyinin qədəmlərinin dövlətimiz və xalqımız üçün düşərli və sayalı olması münasibətilə ürəkdən təbrik edir, hamıya yeni uğurlar, yeni nailiyyətlər, yeni qələbələr arzulayıram.

Doğma Vətən uğrunda şəhidlik, ölməzlik zirvəsinə yüksələn və şanlı qəhrəmanlıq nümunəsi göstərən bütün şəhidlərimizin müqəddəs ruhu şad olsun deyirəm. Şəhidlər ölmür, şəhidlər ölməzliyə qovuşur! Daim hər bir canlıdan daha canlı olan qalib və məğrur şəhidlərimizin də ruhu bizimlə birlikdə deyir: **Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

***Gəray GƏRAYBƏYLİ,***
***ATU-nun rektoru,***
***professor***

# Koronavirusdan qorunmaq üçün sadə qaydalara əməl olunmalıdır

Pandemiya ilə əlaqədar dünyanın bir çox ölkəsində tətbiq olunan qadağalar daha da sərtləşdirilir. Çünki açıq şəkildə etiraf olunur ki, koronavirusun yayılması ilə bağlı vəziyyət son dərəcə ciddidir. Bununla əlaqədar olaraq, insanlar arasında təmasları maksimal dərəcədə azaltmaq və infeksiya zəncirlərini qırmaq üçün məhdudiyyətləri sərtləşdirmək məcburiyyəti yaranıb.

Belə ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyada qeydə alınan koronavirusa yoluxma hallarının ötən həftə təxminən 4 milyon artdığını açıqlayıb. ÜST-ün məlumatlarına görə, dünyada 23-29 noyabr tarixlərində ümumilikdə 3 milyon 935 min 330 koronavirusa yoluxma faktı qeydə alınıb və 69 min 916 nəfər isə xəstəlik səbəbindən həyatını itirib. Bundan əvvəlki həftə ərzində isə 4 milyon 60 min 891 yoluxma faktı və 67 min 221 ölüm halı qeydə alınmışdı. ÜST son zamanlarda görülən cüzi azalmaya baxmayaraq qlobal infeksiya nisbətinin yüksək olduğunu və ölüm hallarının artmaqda davam etdiyini nəzərə çatdırıb.

Azərbaycanda da vəziyyət gərgin olaraq qalır.

TƏBİB-in infeksion xəstəliklər üzrə İşçi Qrupunun üzvü Nəzrin Mustafayeva brifinqdə ürək-damar, şəkərli diabet, xərçəng xəstələrində ağırlaşma və ölüm hallarının daha yüksək müşahidə edildiyini vurğulayıb: "Yoluxma sayı panikaya səbəb olub. Ancaq onların 81 faizi yüngül simptomları keçirirlər. Lakin bəzi həssas olan şəxslər xəstəxanalara axın edirlər. Ev şəraitində tətbiq olunan müalicədən əlavə həkim məsləhəti olmadan digər vasitələrdən istifadə edirlər. Daha da ağırlaşmış hallarda xəstəxanaya müraciət edirlər. Həyəcanı və panikanı üstələyərək ətrafımızdakıları düzgün idarə edə bilərik. Bəziləri yaşadıqları məkanı tərk edirlər. Bu, digər vətəndaşlar üçün təhlükə yaratmaqdadır".

Mütəxəssislər koronavirusla əlaqədar yaranmış vəziyyətin mürəkkəbliyini qeyd etməklə yanaşı, həyəcanlı proqnozlar da verirlər. Vəli Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, professor Adil Allahverdiyev brifinqdə bildirb ki, elə məqam gəlib çatıb ki, sərt addımlar atılmalıdır, belə olmasa, çətin vəziyyət yaranacaq: "Heç olmasa 2 həftəlik bir mərhələ olmalıdır. Dünyanın bütün ölkələrində sərtləşdirmə baş verir". Mütəxəssis son aylarda baş verən hadisələrin təsirindən də danışıb. O, açıqlayıb ki, son zamanlar yumşalmalar oldu, daha sonra müharibə başladı. Bildirib ki, insanların stres və həyəcan keçirməsi immun sisteminə təsir etdi. Adil Allahverdiyev qeyd edib ki, buna görə də xəstəlikdə yoluxma sayı 4000-ü aşıb: "Avqust ayında 135 xəstə var idi. Sadəcə 2 nəfər vəfat etmişdi. Xəstəlik daşıyıcıları 20 yaşa qədər insanlardır. Ancaq evdə 65 yaşüstü olan insanlarla təmasda olurlar. Bilməlidir ki, onlar ölüm daşıyıcılarıdır. Əgər siz ailənizin yaşamasını istəyirsinizsə, bunları diqqətə almalısınız. Burun açıq olmamalıdır. Taksilər pəncərə qapalı bütün günü sərnişin daşıyırlar. Taksiyə oturan kimi maska tələb etməli, pəncərəni açıb havanı dəyişmək lazımdır".

Bu günlər dünyanın diqqəti peyvənd barədə gələn xəbərlərdədir. Koronavirusdan çıxış yolu axtaran mütəxəssislər hələ ki, insanların ümidlərini tam doğruldan cavabı verməyiblər. TƏBİB-in infeksion xəstəliklər üzrə İşçi Qrupunun üzvü Nəzrin Mustafayeva da dünənki brifinqdə təəssüflə qeyd edib ki, bir ilə yaxın müddətdə effektiv peyvənd təsdiqlənməyib. Azərbaycan Tibb Universitetinin professoru Akif Qurbanov isə bildirib ki, yaxın aylarda kütləvi vaksinasiya tədbirləri başlayacaq. Azərbaycan dövləti ən zərərsiz vaksinlərin ölkəyə gətirilməsi üçün tədbirləri bitirib. Vaksinlər hazır olanda ölkəyə gətiriləcək: "Gəlin səhiyyə sistemimizi yükləməyək. Bilirsiniz ki, xəstəxanalarda yaralı əsgərlərimiz müalicə alır. Biz özümüzü qorumaqla həmin əsgərləri də qorumuş olarıq".

Mütəxəssislər koronavirusdan qorunmaq üçün sadə qaydalara - gigiyenik qaydalara əməl etməyi, maska taxmağı, sosial məsafəni gözləməyi tövsiyə edirlər. Ancaq doğru taxılmadığı halda maskanın da heç bir faydası olmur. Akif Qurbanov deyib ki, əgər koronavirusdan qorunmaq üçün maska taxılırsa, bu, düzgün formada taxılmalıdır. Azərbaycan Tibb Universitetinin professoru bildirib ki, maska tənəffüs yollarını tamamilə bağlamalıdır. İnsanlar arasında məsafə saxlanmasına fikir verilməlidir. Digər qaydalara düzgün riayət etmək də eyni dərəcədə zəruridir: "Əllərin gigiyenası, tez-tez sabunla yuyulması bu virusu əlimizdən apara bilər. Hökmən dezinfeksiyaedici məhlulun istifadəsinə ehtiyac yoxdur". O vurğulayıb ki, yoluxma saylarında əsas artım faktoru ailədaxili yoluxma ilə bağlıdır. Bir nəfər yoluxaraq bütün ailə üzvlərini yoluxdura bilir. Akif Qurbanov bildirib ki, koronavirusa yoluxan şəxs həkim nəzarəti ilə evdə müalicə alıb sağala bilər. Bir şərtlə ki, ətrafdakıları qorusun və tam özünütəcrid rejiminə əməl etsin.

Hazırda ev şəraitində müalicə olunan çoxsaylı xəstələr var. Təəssüf ki, onların bir çoxu üzərinə düşən məsuliyyəti dərk etmir. Hər gün belə onlarca xəstənin icazəsiz yaşayış yerlərini tərk etdikləri, hətta başqa şəhərə getmək üçün yola çıxanların olması barədə məlumatlar verilir. Azərbaycan Tibb Universitetinin professoru Akif Qurbanov dünənki brifinqdə hazırda ev şəraitində müalicə alan çoxsaylı xəstələrin infeksiya mənbələri olduqlarını haqlı olaraq diqqətə çatdırıb: "Təcrid olmasa, ailədaxili yoluxanların sayı artacaqdır" deyib.

Koronavirusdan xilasın ən ümdə yolu onun haqqında zəruri məlumatlara malik olmaqdır. O zaman gözəgörünməz düşmənlə mübarizə aparmaq bir qədər asanlaşır. Lakin bugünkü vəziyyət ölkə əhalisinin COVID-19 barədə çox da bilgili olmadığını açıq-aydın göstərir. A.Qurbanov bildirib ki, vətəndaşlar bu xəstəlik haqda hələ də kifayət qədər məlumatlı deyillər: "Bir çox şəxs soyuqlama halı olan kimi dərhal xəstəxanaya müraciət edir. Gedib ağciyərlərini müayinədən keçirir. Müayinə zamanı məlum olur ki, ciyərlərində heç nə yoxdur. O zaman həmin şəxs arxayınlaşır. COVID-də ağırlaşma zamanı ciyərlərdə problemlər yaranır. Həkimlər də bəzən düzgün müayinə etmirlər. Xəstələri KT etdirirlər. Bəzən isə bu xəstəlik yüngül soyuqlama halı ilə müşahidə edilir".

Həkim vurğulayıb ki, virus aşkarlanan şəxs özünü təcrid etməli, işə bu barədə məlumat verməlidir: "Hər kəs soyuqlama əlaməti hiss edərsə, sanki "məndə COVID var" kimi fikirləşməlidir. Onda həkimə müraciət edib diaqnozu dəqiqləşdirmək olar. Bəzən xəstəliyin bütün əlamətləri göz qabağında olur, lakin PSR analizi mənfi gəlir. Bu halda da özünü təcrid rejiminə riayət etməliyik. Lazım olmadığı halda ictimai nəqliyyatdan istifadə olunmamalı, mümkün qədər evdə qalmalıyıq. Daha sıx münasibətləri - əllə görüşməyi, qucaqlaşmanı tərgitmək lazımdır. Bu halda yoluxma sayını azaltmağa nail ola bilərik".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyi vətəndaşları xüsusi karantin rejimi qaydalarına ciddi əməl etməyə çağırır

**Daxili İşlər Nazirliyi (DİN) vətəndaşları xüsusi karantin rejimi qaydalarına ciddi əməl etməyə çağırır.**

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə virusa yoluxan şəxslərə ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, xüsusi karantin rejimi qaydalarına zidd olaraq yaşayış yerlərinin tərk edilməsi hallarının müşahidə olunduğu vurğulanıb.

Qeyd edilib ki, dekabrın 2-də polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən paytaxt ərazisində və respublikamızın ayrı-ayrı şəhər və rayonlarında 27 aktiv COVID-19 xəstəsi müəyyən olunaraq saxlanılıb. Onlar əsasən əhalinin intensiv hərəkət etdiyi ictimai yerlərdə aşkarlanıblar. Müəyyən olunan xəstələrdən 25-i evə qaytarılıb, 2 ağır xəstə isə həyatını itirib. Eləcə də 20 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb, istintaq araşdırmaları davam etdirilir.

DİN vətəndaşlarımıza bir daha müraciət edərək xüsusi karantin rejiminin tələblərinə ciddi əməl olunmasına çağırıb.

# Azərbaycanda koronavirus infeksiyasına daha 4189 yoluxma faktı qeydə alınıb, 2072 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 4189 yoluxma faktı qeydə alınıb, 2072 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 40 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 133 min 733 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 81 min 234 nəfər müalicə olunaraq sağalıb, 1510 nəfər vəfat edib. Aktiv xəstə sayı 50989 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 781 min 218 test aparılıb. Dünənki test sayı isə 17609-dur.

# Karantin rejimini pozan Zərdab sakini barəsində cinayət işi başlanıb

**Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.**

Zərdab Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1993-cü il təvəllüdlü Məmmədov Eşqin Nazir oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olmasını bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda dekabrın 1-də rayon sakinləri ilə təmasda olmaqla epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub, yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Zərdab Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi istintaqın aparılması üçün aidiyyəti üzrə Zərdab Rayon Polis Şöbəsinə göndərilib. Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

Kamal Abdullayev-70

# Görkəmli alim, tanınmış yazıçı



**Azərbaycan dilçilik elminin və bədii fikrinin zirvələrindən, parlaq simalarından olan akademik, Əməkdar elm xadimi, Xalq yazıçısı Kamal Abdullayevin 70 yaşı tamam olur. Görkəmli dilçi-türkoloq alimin Azərbaycan filologiyasının, xüsusilə də qorqudşünaslığın, sintaksisin nəzəri problemlərinin, mətn dilçiliyinin hərtərəfli öyrənilməsi və inkişafında mühüm xidmətləri var.**

Kamal Mehdi oğlu Abdullayev (Abdulla) 1950-ci il 4 dekabrda Bakıda anadan olmuş, 1968-ci ildə burada 190 saylı orta məktəbi bitirmişdir. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsilini başa vurduqdan sonra SSRİ Elmlər Akademiyası Dilçilik İnstitutunun aspirantı olmuşdur. 1977-ci ildə Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) mövzusunda namizədlik, 1984-cü ildə Bakıda "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı doktorluq dissertasiyaları müdafiə etmişdir. O, 1993-cü ildə professor elmi adı almış, 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1977-ci ildə Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda başlayan Kamal Abdullayev burada kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1984-1987-ci illərdə Xarici Dillər İnstitutunun Ümumi və Azərbaycan dilçiliyi kafedrasının müdiri, sonrakı üç ildə isə Azərbaycan Mədəniyyət Fondunun (hazırda Azərbaycan Yaradıcılıq Fondu) sədrinin birinci müavini olmuşdur. Akademik Kamal Abdullayev Bakı Slavyan Universitetinin rektoru, AMEA Humanitar və ictimai elmlər bölməsinin akademik-katibi, Azərbaycan Respublikası Prezidentinin millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri kimi məsul vəzifələrdə çalışmışdır. 2017-ci ildən Azərbaycan Dillər Universitetinin rektorudur.

Akademik Kamal Abdullayevin dilçiliyə dair əsərləri ilk növbədə aktuallığı və sanballığı, yeniliyi və yüksək elmi dəyəri ilə seçilir. Onlar sırasında "Azərbaycan dili sintaksisinin nəzəri problemləri", "Türk dillərinin müqayisəli tədqiqi", "Sintaktik paralelizm", "Mətn sintaksisi, mürəkkəb sintaktik bütövlər" monoqrafiyaları xüsusi yer tutur. Qeyd edim ki, müəllifin elmi əsərlərinin çoxu Azərbaycan dili ilə yanaşı, rus dilində də nəşr olunmuşdur.

Akademik Kamal Abdullayevin elmi yaradıcılığında 34 yaşında ərsəyə gətirdiyi "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" əsəri xüsusi yer tutur. Müəllifin Azərbaycan dilçiliyində hadisə sayılan bu sanballı əsəri bir sıra yeni elmi araşdırmalara cığır açmış, onlar üçün başlıca istiqamətverici qaynaq rolunu oynamışdır.

Böyük dilçi alim, akademik Kamal Abdullayevin qələmindən çıxan çoxsaylı əsərləri sırasında "Dilçiliyə səyahət" adlı elmi-kütləvi və bədii-fəlsəfi əsərini də ayrıca qeyd etmək lazımdır. Əsər ilk növbədə müəllifin dilimizə olan böyük sevgisi, azərbaycançılıq məfkurəsinə ürəkdən bağlılığı ilə yadda qalır. Kitabda eyni zamanda müəllifin dilçilik tarixinə, müxtəlif dillərə, müqayisəli dilçiliyə dair dərin bilikləri də qabarıq şəkildə özünü göstərir. Maraqlı bir üslubda qələmə aldığı bu əsərini alim həm də "Dilçi olmayanlar üçün dərslik" adlandırır.

Akademik Kamal Abdullayev çalışdığı bütün məsul vəzifələrdə özünü bacarıqlı rəhbər və yenilikçi təşkilatçı kimi göstərmişdir. O, Bakı Slavyan Universitetinin rektoru vəzifəsində çalışdığı müddətdə (2000-2014) bu ali təhsil ocağının nüfuzunu xeyli artırmış, bir sıra yeni layihələri həyata keçirməyə nail olmuşdur. Həmin layihələr sırasında "Filoloqun kitabxanası", "Dünya nəsri", "Tərcümə problemləri" elmi tədqiqat laboratoriyasını xüsusi olaraq qeyd etmək lazımdır. Görkəmli alimin ideya müəllifi və baş redaktoru olduğu "Azərbaycan Tərcümə Ensiklopediyası"nın bünövrəsi onun Bakı Slavyan Universitetinə rəhbərlik etdiyi illərdə qoyulmuşdur, Azərbaycanda ilk dəfə hazırlanmış bu sanballı kitab 2018-ci ildə işıq üzü görmüşdür. Ensiklopediyada Azərbaycanda tərcümə tarixi ilə bağlı məsələlər işıqlandırılmaqla yanaşı, görkəmli mütərcimlər haqqında da dəyərli bilgilər verilmişdir.

Akademik, Xalq yazıçısı Kamal Abdullayevin elmi və bədii yaradıcılığında oğuzların ana kitabı "Dədə Qorqud" eposu qırmızı xətlə keçir. Görkəmli dilçi alimin hələ 27 yaşında Moskvada SSRİ EA Dilçilik İnstitutunda uğurla müdafiə etdiyi "Sintaktik paralelizm" adlı dissertasiya işi dünya folklorunun bu nadir incisinə həsr olunmuşdur. Alim sonralar da bu mövzuya dönə-dönə qayıdaraq "Gizli Dədə Qorqud", "Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud", "Kitabi-Dədə Qorqud" dastanının poetikasına giriş" adlı sanballı elmi əsərlərini ortaya qoymuşdur. Kamal Abdullayev qorqudşünaslıq sahəsindəki səmərəli elmi fəaliyyətinə görə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə - 1999-cu ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Qeyd edim ki, "Kitabi-Dədə Qorqud" eposu və almanların "Nibelunqlar nəğməsi" arasında bir yaxınlıq və səsləşmə olduğunu müəyyən edən görkəmli dilçi-türkoloq alim bu iki möhtəşəm folklor nümunəsinin müqayisəli elmi araşdırmalara cəlb edilməsi üzrə beynəlxalq layihənin təşkilatçılarından və əsas müəlliflərindən biridir.

Akademik, Xalq yazıçısı Kamal Abdullayevin istər elmi, istərsə də bədii əsərləri müəllifin milli humanitar elminə, xalqımızın qədim bədii təfəkkürünə dərindən bələdliyini, eləcə də rus və Qərb dilçiliyi, dünya ədəbiyyatı, mədəniyyəti və folkloru sahəsində də yetkin bilik sahibi olduğunu sübut edir.

Akademik Kamal Abdullayev yeniliyə can atan, daim ideyalar axtarışında olan yaradıcı insandır. Bir çoxları alim-yazıçını "ideyalar generatoru" adlandırırlar. Kamal Abdullayevi Azərbaycandan kənarda, xüsusilə də Türkiyədə, Almaniyada tanıyanlar da onun bu seçkin keyfiyyətinə yaxşı bələddirlər.

Akademik Kamal Abdullayevin elmi-bədii yaradıcılığının son böyük nailiyyətlərindın biri müəllifin ürəkdən bağlandığı, bütün həyatı boyu onun yol yoldaşı olan "Kitabi-Dədə Qorqud" eposu ilə bağlıdır. Bu, müəllifin "Kitabi-Dədə Qorqud"un poetikasına giriş" (Bakı, 2017) monoqrafiyasıdır. Görkəmli türkoloq alimin bu sanballı elmi əsəri ilk növbədə oğuzların ana kitabı "Dədə Qorqud" dastanlarına yeni yanaşma üsulu ilə diqqəti çəkir. Müəllif dərindən bələd olduğu eposun yaranma tarixi ilə bağlı tutarlı dəlillər gətirərək diqqəti əsərdə baş verən hadisələrin insan oğlunun ilk yaranış dövrünə aid olması kimi qlobal bir məsələyə yönəldir, bununla da Azərbaycan folklorunun qədimliyini, dərin köklərini sübuta yetirir. Əsər bütövlükdə götürdükdə elmi üslubda yazılmasına baxmayaraq, burada yazıçı qələminin izləri, özünəməxsus bədiilik də göz qabağındadır ki, bu mühüm amil də onun özümlüyünü və təsir gücünü artırmış olur. Alim-yazıçının iş otağındakı yazı taxtasında onun öz xətti ilə "Dədə Qorqud" eposundan bir cümlə yazılmışdır ki, bu maraqlı fakt sözügedən möhtəşəm əsərin alim-yazıçını daim düşündürdüyündən xəbər verir.

Akademik Kamal Abdullayevin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətində də böyük əməyi vardır. Mərkəzin Himəyadarlar Şurasının sədri olan Kamal Abdullanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə dünyanın bir sıra qabaqcıl universitetlərində Azərbaycan multikulturalizmi fənni tədris olunur ki, bu da bütövlükdə Vətənimizin xarici ölkələrdə daha yaxşı tanıdılması və təbliği işinə öz töhfələrini verir. Mərkəzin təşkil etdiyi yay məktəbi və bu məktəblərdə xarici ölkə tələbələrinin iştirakı ideyası da akademik Kamal Abdullayevə məxsusdur.

Akademik Kamal Abdullayev artıq bir neçə ildir ki, Azərbaycan Dövlət Dillər Universitetinin rektoru vəzifəsində çalışır. Bu zaman kəsiyində universitetin nüfuzu nəzərəçarpacaq dərəcədə artmışdır. Kamal müəllim rəhbərlik etdiyi universitetdə bir sıra maraqlı layihələr həyata keçirmişdir və bu iş uğurla davam etdirilir.

Akademik Kamal Abdullayevin "Türkologiya" beynəlxalq elmi jurnalının fəaliyyəti dövründəki xidmətlərini də ayrıca olaraq qeyd etmək lazımdır. Əsası 1970-ci ildə qoyulan bu jurnala (o vaxtlar "Sovetskaya türkologiya" adlanırdı) 2016-cı ildən akademik Kamal Abdullayev rəhbərlik edir. Bu müddətdə dörd dildə (Azərbaycan, rus, ingilis, türk) nəşr olunan jurnal məhz baş redaktor Kamal Abdullayevin gərgin əməyi sayəsində özünün mövzu və əhatə dairəsini daha da genişləndirmiş, nüfuzlu elmi jurnallara məxsus göstəricilərinə görə bir sıra beynəlxalq indekslərə layiq görülmüşdür.

20-dən çox monoqrafiya və dərs vəsaitinin, 300-ə yaxın elmi və publisistik məqalənin müəllifi olan akademik Kamal Abdulla eyni zamanda qüdrətli qələm sahibidir, dünya şöhrətli Azərbaycan yazıçısıdır. Xalq yazıçısının bədii yaradıcılığının ilk böyük nümunəsi sayılan "Yarımçıq əlyazma" romanı müəllifinə böyük şöhrət qazandırmış və qısa zamanda dünyanın bir çox dillərinə (türk, rus, gürcü, ingilis, fransız, alman, ispan, polyak, portuqal, ərəb, yapon və s.) tərcümə edilərək böyük tirajla nəşr olunmuşdur. Özümlüyü və çəkiciliyi, bənzərsiz üslubu və yüksək ustalığı ilə seçilən "Yarımçıq əlyazma" romanı Azərbaycan ədəbiyyatı üçün yeni olan postmodernizmin uğurlu nümunələrindən biri kimi dəyərləndirilir.

Xalq yazıçısı Kamal Abdullanın digər romanlarında da ("Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox", "Sirlərin sərgüzəşti") eyni bənzərsiz üslub özünü göstərir. Yeri gəlmişkən, qeyd edim ki, müəllifin "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox" romanları haqqında ölkə xaricində elmi əsərlər yazılmışdır. Bədii əsərləri xarici ölkə dillərinə ən çox tərcümə olunan Azərbaycan yazıçılarından biri də Kamal Abdulladır. Xalq yazıçısının pyesləri Azərbaycan, Gürcüstan və Estoniya teatrlarında uğurla səhnəyə qoyulmuş və yüksək qiymətləndirilmişdir.

Xalq yazıçısı Kamal Abdullanın romanlarının, ümumiyyətlə, bədii əsərlərinin bir özəl keyfiyyətini, seçkin xüsusiyyətini ayrıca olaraq qeyd etmək istəyirəm. Müəllifin qələmindən çıxmış bədii əsərləri özünəməxsus dil-üslub özəllikləri ilə seçilir. Yazıçının işlətdiyi bir sıra cümlələri və cümlə quruluşları, ayrı-ayrı deyim və ifadələr olduqca orijinal səslənir və özündə dilimizin əski qatının xüsusiyyətlərini daşıyır. Maraqlıdır ki, bu qabarıq özəllik müəllifin bədii əsərləri üçün seçdiyi adlarda da özünü göstərir: "Sirr içində dastan və yaxud Gizli Dədə-Qorqud", "Sehrbazlar dərəsi", "Sirri-zəmanə", "Sirlərin sərgüzəşti".

Akademik, Xalq yazıçısı Kamal Abdullayevin Azərbaycan dili və mədəniyyətinin, multikulturalizm dəyərləri və tolerantlığın təbliği sahəsindəki səmərəli fəaliyyətini də ayrıca olaraq qeyd etmək lazımdır. Müəllifin "Gəlin azərbaycanca danışaq" kitabının Fransada fransız dilində (2008), Rumıniyada rumın dilində (2010) nəşr edilməsi dilimizin ölkə xaricində tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında böyük işlər görən alim-yazıçı Kamal Abdulla elmi və bədii yaradıcılığı ilə də Azərbaycanı xaricdə böyük ləyaqətlə təmsil edən, yetərincə tanıdan vətənpərvər ziyalılarımızdan biridir.

Akademik Kamal Abdullayevin təşəbbüsü və bilavasitə iştirakı ilə "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı üç dildə (Azərbaycan, rus, ingilis) nəfis şəkildə nəşr olunmuşdur. Görkəmli alim eyni zamanda "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" adlı sanballı dərsliklərin elmi redaktoru və əsas müəlliflərindən biridir.

Akademik Kamal Abdullayevin ölkəmizdə gənc dilçi-türkoloq kadrların yetişməsində də böyük əməyi var. Qeyd etmək lazımdır ki, akademikin rəhbərliyi altında aparılan elmi-tədqiqat işləri orijinallığı, sanballığı və yüksək elmi səviyyəsi ilə seçilir.

Tanınmış dilçi-türkoloq alim Kamal Abdullayev Türk Dil Qurumunun həqiqi fəxri üzvü, Ukrayna Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü, eləcə də Rusiya, Gürcüstan və Bolqarıstan universitetlərinin fəxri doktoru, Rusiya Federasiyasının Poltava İqtisadiyyat və Ticarət Universitetinin fəxri professorudur.

Akademik, Əməkdar elm xadimi Kamal Abdullayevin Azərbaycan elmi və mədəniyyəti sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. O, 2015-ci ildə "Şöhrət" ordeninə, keçən il isə Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. Görkəmli alim eyni zamanda Rusiya Federasiyasının "Puşkin" medalı və Macarıstanın "Zabit xaçı" ali xidmət ordeni ilə təltif olunmuşdur.

Kamal Abdullayevi 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, hörmətli həmkarıma möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

***Möhsün NAĞISOYLU,***
***AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik***

# Dayanıqlı elektrik təchizat sisteminin təmin olunması üçün tədbirlər davam etdirilir

"Azərişıq" ASC texniki itkilərin azaldılması, uçot sisteminin təkmilləşdirilməsi, habelə dayanıqlı elektrik təchizat sisteminin təmin olunması üçün zəruri texniki tədbirləri davam etdirir

2015-ci ildə "Azərişıq" ASC yaradılanadək şirkətdə elektrik enerjisi üzrə texniki itki 13,9% təşkil etmiş, 2016-cı ildə bu rəqəm 10%, 2017-ci ildə 9,9%, 2018-ci ildə 9,8%, 2019-cu ildə 9,7%, 2020-ci ildə isə 0,8% olmuşdur.

Bu barədə cəmiyyətin Mətbuat xidmətinin rəhbəri Vaqif Mustafayev məlumat verib. Onun sözlərinə görə, bu gün də "Azərişıq" ASC texniki itkilərin azaldılması, uçot sisteminin təkmilləşdirilməsi, habelə dayanıqlı elektrik təchizat sisteminin təmin olunması üçün zəruri texniki tədbirləri davam etdirir. Bu məqsədlə elektrik şəbəkələrində əsaslı yenidənqurma işləri aparılır, ağac dayaqlar yeni dəmir-beton dayaqlarla əvəz olunur, eləcə də uçot sistemi təzələnərək sayğaclar yenilənir. 2015-2020-ci illər ərzində, ümumilikdə, 1 milyon 300 minə yaxın abunəçi yeni sayğaclarla təchiz edilmişdir ki, bunun da 1 milyon 157 mini əhali, 142 min 309-u isə qeyri-əhali abonentlərinə aid uçot nöqtələri təşkil etmişdir. 2020-ci ilin 10 ayında isə, ümumilikdə, 196 436 abonent yeni sayğacla təchiz edilmiş və bunun da 185 543-ü əhali, 10 893-ü isə qeyri-əhali abonentlərinə aiddir. Görülən tədbirlər nəticəsində, ümumilikdə, "Azərişıq" ASC üzrə son 5 il ərzində texniki itki səviyyəsinin 5 faizədək azalmasına nail olunub", - deyə Vaqif Mustafayev əlavə edib.

O, qeyd edib ki, "Azərişıq" ASC tərəfindən respublikanın bütün kənd və qəsəbələrində elektrik enerjisi sisteminin yenidən qurulması ilə bağlı genişmiqyaslı işlər həyata keçirilir: "Son 5 ildə 500-dən çox kənd və qəsəbədə, cari ilin 10 ayında isə 50-dən çox inzibati ərazi vahidliklərində (0,4 kV-luq şəbəkələrdə) yenidənqurma işləri aparılaraq, ümumilikdə, minlərlə istehlakçının 24 saat ərzində dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı tam təmin olunub".

# 2020-ci il hər bir azərbaycanlı üçün əlamətdar oldu - biz Qarabağımızı qaytardıq!

İşğaldan azad edilmiş ərazilərdə tarixi abidələr, bina və yollar, bir sözlə - normal yaşayış üçün gərəkli olan hər şey dağıdılmışdır. Elə buna görə də ölkəmiz qarşısında bu gün işğaldan azad edilmiş ərazilərdə yeni infrastrukturun və iqtisadiyyatın yenidən qurulması, dirçəldilməsi kimi mühüm bir məsələ durur.

"Biz qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır..." - xalqa müraciət nitqində Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, Bakı nəzarətimiz altına keçən Qarabağ ərazilərinin bərpası işinə artıq başlayıb.

Zəruri infrastrukturun bərpası və qurulması məqsədilə "Azərişıq" ASC bu ərazilərdə, mühüm əhəmiyyətli strateji obyektlərin elektrik təchizatını təmin etmək üçün "Azərişıq Qarabağda" layihəsi çərçivəsində təcili tədbirlərə start verib.

İşğaldan azad edilmiş ərazilərdə hazırda Prezident İlham Əliyevin müvafiq göstərişinə əsasən, cəbhəyanı zonalarda düşmən hücumu nəticəsində dağıdılmış şəbəkələrin bərpası və yenidən qurulması üzrə operativ tədbirlər həyata keçirilir.

"Hazırda, ölkə prezidenti İlham Əliyevin müvafiq göstərişinə əsasən, Qarabağ ərazisində mühüm əhəmiyyətli strateji obyektlərin elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində fasiləsiz işlər aparılmaqdadır. Şəbəkələrin yenidənqurma və tikintisi işlərinin layihələndirilməsinə gəldikdə isə, düşünürük ki, müasir və innovativ texnologiyaların cəlb edilməsilə bu proses daha da sürətlənəcək. Belə ki, ərazinin 3D-mobil xəritəsinin yaradılması ilə güc mərkəzləri, elektrik veriliş xətləri, paylayıcı qurğular və uçot komplektinin coğrafi mövqeləri lazer skaneri vasitəsilə hazırlanmış modeldə öz əksini tapır. Bununla əlaqədar olaraq özünü rəqəmsal texnologiyalar sahəsində yetərincə təsdiq etmiş EKM Global Consulting GmbH şirkəti ilə gələcək əməkdaşlıq haqda niyyət sazişi imzalandı", - deyə "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov qeyd etdi ki, müasir texnologiyalar və mühəndis-texniki həllər layihə-konstruktor işlərinin maksimal effektivliklə aparılmasına geniş imkanlar yaratması, əraziyə getmədən və vaxt itkisinə yol vermədən işlərin həyata keçirilməsi imkanları bu əməkdaşlığın müsbət cəhətlərindəndir.

"Üçölçülü verilənlərin istifadəsi insan faktorunu aradan qaldırmaqla, səhvləri və vaxt itkisini ciddi şəkildə aradan qaldırmağa imkan verir. Əldə olunan dəqiq və faydalı məlumatlar növbəti emal mərhələsi üçün "Azərişıq" ASC-nin Ağıllı Şəbəkələrin İdarəetmə Mərkəzinə yönəldilərək, müvafiq sistemlərə inteqrasiya edilir. Bu isə bütün mərhələlərdə məsrəflərin azaldılmasına səbəb olacaq. Digər tərəfdən, niyyət sazişinə əsasən, yarana bilən istənilən suallara ekspert cavabı almaq imkanı da yaranır", - deyə R. Yusifov əlavə etdi.

"Bu texnologiyalar dünya üzrə bir çox müxtəlif sahələrdə istifadə edilir. Tikililərin 3D lazer skan edilməsi və modelləşdirilməsi, tarixi-memarlıq abidələr və topoqrafik planların mövcud vəziyyətini dolğun və dəqiq əks etdirməyə imkan verir. Yerüstü topoqrafik çəkilişlər, öz iş yerlərini tərk etmədən müxtəlif ölçmələrin aparılmasında mütəxəssislərə geniş imkanlar yaradır. Və əlbəttə ki, bu kimi innovativ yanaşmalar zəruri olan işlərin daha az vaxt və məsrəflərlə həyata keçirilməsini təmin edir", - deyə, E. Musayev müasir texnologiyaların tətbiq üstünlüklərindən danışdı.

Azərbaycan Vətən Müharibəsində müasir texnologiyaların tətbiq edilməsilə zəfər marşını sürətləndirdiyi kimi, müasir texnologiyalar və innovativ metodları cəlb edərək azad edilmiş ərazilərin bərpası, yenidən qurulması, infrastrukturun yaradılması işləri daha da sürətlə və uğurla aparılaraq, "21-ci əsrin Qarabağı"nın təməli qoyulacaqdır. Biz qayıtdıq!

***"Azərbaycan"***

# Paytaxtda mövsümi ağacəkmələr geniş vüsət alıb





**Bakı şəhərinin müxtəlif ərazilərində mövsümi ağac əkilməsi və yaşıllaşdırma işləri geniş şəkildə davam edir.**

Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyindən verilən məlumata əsasən, görülən işlərin əsas məqsədi paytaxt ərazisində yaşıllıq sahələrinin artırılmasıdır. Bununla əlaqədar birlik tərəfindən şəhərin yeni yaşıllıq planı hazırlanıb və işlər həmin plana uyğun aparılır. Bildirilib ki, əkin prosesində Bakı şəhərinin iqlim şəraitinə uyğunlaşdırılmış yerli ağac növləri ilə yanaşı, yeni növ enli yarpaqlı ağaclardan və xüsusi rəng çalarlarına malik olan ağcaqayın ağaclarından da istifadə olunur. Bu gün ərzində birliyin əməkdaşları tərəfindən paytaxtın Xəzər rayonu, Qala qəsəbəsində əsas magistral yolun kənarında müxtəlif tullantılardan təmizlənmiş sahələrdə 1000-dən çox yeni ağac əkilmiş, ağacların suvarılması və onlara qulluq göstərilməsi məsələləri həll edilmişdir.

Eyni zamanda şəhərin mərkəzində - Üzeyir Hacıbəyov, Zərifə Əliyeva, Yusif Səfərov və digər küçələrdə mövcud ağacların dibində qırmızı sarmaşıqlar əkilib, güllərdən müxtəlif kompozisiyalar düzəldilib. Küçə və yol kənarlarında sınmış, qurumuş, ətrafdakılar üçün təhlükə yaradan ağaclar həmin əraziyə gözəllik verəcək yeni ağaclarla əvəz edilir.

Mövsüm ərzində Bakı şəhərində 20 mindən artıq ağacın əkilməsi nəzərdə tutulub. Təcrübəli landşaft mütəxəssisləri tərəfindən hazırlanmış bu xüsusi planın həyata keçirilməsi Bakı şəhərində yaşıllıq sahəsində yeni rənglərin yaranmasına səbəb olacaqdır.

Paytaxtın yaşıllıq səviyyəsinin keyfiyyətcə daha yüksək səviyyəyə çatdırılması məqsədilə həyata keçirilən bu tədbirlər paytaxtın estetik görünüşünün daha da yaxşılaşdırılmasına və keyfiyyətcə yeni səviyyəyə çıxmasına imkan verəcəkdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***


## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi koronavirus (COVID-19) xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi xidmətinin

*kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər **04.12.2020-ci il saat 09:00-dan 08.12.2020-ci il saat 15:00-dək** qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**

**Telefon nömrəsi: +99412 497-71-34. E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az**

*Tender komissiyası*

## Lənkəran Dövlət Universiteti

"Əsas vəsaitlərə, elektrotexniki avadanlıqlara texniki baxışın keçirilməsi və yararlı olub-olmaması barədə müvafiq rəyin verilməsi"nin

*kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (050) 667-50-77 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər ikiqat zərfdə möhürlənmiş şəkildə **04.12.2020-ci il saat 08:30-dan 08.12.2020-ci il saat 17:30-dək** Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

Zərflər **09.12.2020-ci il saat 10:00-da** açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

## Əhaliyə Vətəndaşlıq Xidməti Tresti

"Buzovna və Zabrat-3 qəbiristanlıqlarında hasar tikintisi işlərinin"

*kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +99450 388-18-87 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.12.2020-ci il saat 16:03-dən 09.12.2020-ci il saat 12:00-dək qəbul olunur.

Zərflərin açılışı 09.12.2020-ci il saat 15:00-da Əhaliyə Vətəndaşlıq Xidməti Trestinin inzibati binasında keçiriləcəkdir.

**Tel: +99450 388-18-87.**

**Ünvan:Bakı şəhəri, Parlament prospekti, 500, ev 2**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti "Sair torpaq, tikili və avadanlıqlar" xərc maddəsi üzrə inventarların *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 525 55 45 (daxili - 6029) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 08 dekabr 2020-ci il saat 15:00-dək Bakı şəhəri,Yasamal rayonu, M.Naxçıvani küçəsi, 25A ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi möhür, ştamp və məlumatdaşıyıcı lövhələrin *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 03.12.2020-ci il saat 15:00-dan 09.12.2020-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**

**Telefon nömrəsi: +99412 497-71-34 E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu Əməkdaşlar üçün könüllü tibbi sığorta xidmətlərinin satın alınması üzrə *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498-77-53, faks: +99412 565-87-55, email: TSK2020@oilfund.az) əlaqələndirici şəxslər: Sitara Mirabdullayeva-daxili: 8004, Abdulla Böyükkişiyev-daxili: 1004, hüquqi məsələlər üzrə Kəmalə Rəhimova-daxili: 8023) müraciət edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iddiaçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak üçün sənədlər 14 dekabr 2020-ci il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 15 dekabr 2020-ci il saat 11:00-da AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin inzibati binasının yanğın əleyhinə mühafizə sistemlərinə göstəriləcək periodik texniki servis xidmətlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 02 dekabr 2020-ci il qərarına əsasən, **"MİCROTECH" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin inzibati binasında quraşdırılmış 2 ədəd "KONE" markalı sərnişin liftlərinə göstəriləcək periodik texniki servis xidmətlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 02 dekabr 2020-ci il qərarına əsasən, **"RADİON GROUP"** MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC "N.Nərimanov" Elektrik Deposunda havalandırma işləri və "Elmlər Akademiyası" stansiyasının inzibati binasının 6-cı mərtəbəsində paslanmayan poladdan sürahilərin, kondisioner və istilik sistemlərinin quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov" Elektrik Deposunda havalandırma işləri və "Elmlər Akademiyası" stansiyasının inzibati binasının 6-cı mərtəbəsində paslanmayan poladdan sürahilərin, kondisioner və istilik sistemlərinin quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə adı çəkilən tender bölməsində əldə edə bilərlər (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon:490-01-01)

**İştirak haqqı - 300 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06 yanvar 2021-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **14 yanvar 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 yanvar 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən e-tender@gov.az Portalında 11.11.2020-ci ildə elan verilmiş LOT-6 Ələt qəsəbəsində Azad İqtisadi Zonanın yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt ATS-Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası kabellərin çəkilməsi xidmətinin (LSS-12811-XQ) satın alınması üzrə keçirilən elektron tenderdə yetərli iştirakçı sayı olmadığından tələb olunan sənədlərin vaxtı 07.12.2020-ci il saat 17:00-dək, açılış tarixi isə16.12.2020-ci il saat17:00-dək uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Aparatı tərəfindən "printerlər üçün orijinal katriclər"in satın alınmasına dair 28.10.2020-ci ildə vahid satınalma Portalında elan olunan açıq tender prosedurunda tender təklifi verən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci bəndinə uyğun olaraq tender baş tutmamış hesab olunmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən **e-tender@gov.az** Portalında elan verilmiş LOT- 5 Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt - ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS - Azad İqtisadi Zona arası Fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan qum, sement, çınqıl və s. mal və materialların satın alınması üzrə 30.11.2020-ci il saat 16:00-da tender təklifləri açıldıqdan sonra "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 27.5-ci maddəsinə əsasən hər üç iddiaçının tender təklifləri kənarlaşdırılmış və tender proseduru ləğv olunmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən qazanxana və istilik sistemlərinin alınıb quraşdırılması işlərinin satın alınması məqsədilə 05.11.2020-ci ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, **"Parlaq-N" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 25 noyabr 2020-ci il tarixli 246 (8562) nömrəsində dərc edilmiş "Kreslo və stullar"ın satın alınması üzrə təkliflər sorğusunda iddiaçıların sayı üçdən az olduğundan davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 29 oktyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən Pentest lisenziyalarının 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması üçün açıq tender üsulu ilə keçirilmiş elektron satınalmada iddiaçıların tender təklifləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinin tələblərinə əsasən kənarlaşdırılmış və bununla da elektron satınalma proseduru ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin Tender komissiyası bildirir ki, "Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər" maddəsi üzrə malların satın alınması məqsədilə 15 oktyabr 2020-ci ildə keçirilmiş elektron tenderin yekun protokoluna uyğun olaraq **"Express Print" MMC** qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Tərtər rayon prokuroru

**ŞIXƏLİ ALMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Səba" ASC-nin Direktorlar Şurasının sədri Natiq Quliyevə atası

**SADAY QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məmməd Musayev, Şöhrət Vəkilov və Nadir Nəsibov ailələri ilə birlikdə İbrahim Nəbioğluya əzizi, tanınmış vəkil

**ADİL İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Ağdam Mexaniki Suvarma İdarəsinin rəisi Hafiz Əzimzadəyə atası

**SƏLİM ƏZİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Sumqayıt Şəhər Məhkəməsinin hakimi Azər İsmayılova atası

**İBRAHİM İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rafayıl Quliyev və Bahar Muradova Natiq və Elçin Quliyevlərə ataları

**SADAY QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apellyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Vüqar Həsənova atası

**TƏVƏKGÜL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7457
Sifariş 2756
Qiyməti 40 qəpik